QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 129 (5360) 22 **iyul** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dünya ölkələri üçün daha bir nümunə

*Prezident İlham Əliyev: “Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim”*



Səh 6

7

**Əflatun Amaşov: “Prezidentlə hər görüş jurnalistlərdə əminlik yaradır”**



11

**Milli mətbuatımızın 142 illik tarixi yolu**



16

**“Qəbələ” mərhələni qələbə ilə keçdi**



# Prezident İlham Əliyev Rusiyaya işgüzar səfər edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Soçinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi Rusiya Federasiyası Krasnodar vilayətinin qubernatoru Veniamin Kondratev və Soçi şəhərinin meri Anatoli Paxomov qarşılayıblar.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Firudin Hacıyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 iyul tarixli 121 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 130 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 978 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# Prezident İlham Əliyev Pirallahı qəsəbəsinin mərkəzi hissəsində həyata keçiriləcək layihələrlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı qəsəbəsinin mərkəzi hissəsində görülmüş işlər və həyata keçiriləcək layihələrlə tanış olub.

AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə Pirallahı qəsəbəsinin baş planı haqqında ətraflı məlumat verdi.

Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq yeni yaranan rayonda müxtəlif nazirlik, komitə və baş idarələrin yerli qurumlarının təşkili prosesinə start verilib. Buna görə Pirallahı qəsəbəsinin baş planı hazırlanıb. Plana əsasən Pirallahı qəsəbəsində inzibati mərkəz üçün ayrılan ərazidə rayon icra hakimiyyəti, Heydər Əliyev Mərkəzi və Yeni Azərbaycan Partiyası rayon təşkilatı üçün binaların inşası davam etdirilir. Səməd Vurğun küçəsində Gənclər Əyləncə Mərkəzi üçün ayrılan sahədə yeraltı və yerüstü kommunikasiya xətləri inşaat sahəsindən kənarlaşdırılıb. Rayonda müxtəlif nazirlik və komitələrin aidiyyəti struktur vahidlərinin yerləşdirilməsinə başlanıb. Artıq Rayon Polis Şöbəsinin müasir binası istifadəyə verilib. Baş plana uyğun olaraq Pirallahı qəsəbəsində sahil xətti boyunca sakinlərin və turistlərin istirahətini təmin etmək məqsədilə yeni dənizkənarı bulvarın və çimərliyin salınması nəzərdə tutulub.

Məlumat verildi ki, Pirallahı qəsəbəsinin müfəssəl planlaşdırma layihəsinin 2033-cü ilədək həyata keçirilməsi nəzərdə tutulur. Beləliklə, qəsəbədə 35 min sakinin məskunlaşması mümkün olacaq. Burada ümummilli lider Heydər Əliyevin həm "Neft daşları"na, həm də Pirallahıya səfərlərini əks etdirən fotostend də var. Belə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə - 1979-cu ildə Pirallahı qəsəbəsinə də gəlib və buradakı bir sıra sənaye müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olub.

Qeyd edildi ki, Pirallahı rayonunda ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyi, insanların sağlamlığının təmin edilməsi, yaşıllıqların artırılması, yeni ağacların əkilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Rayonda ekoloji mühiti yaxşılaşdırmaq məqsədilə baxımsız qalmış sahələr təmizlənir, antisanitar vəziyyət aradan qaldırılır. Mərkəzi yol boyunca müxtəlif landşaft kompozisiyaları düzəldilib, torpaq tökülərək yamaclar, təpələr qurulub, hamarlanma işləri aparılıb, qaya daşları, gül və kol bitkiləri ilə bəzədilib.

Pirallahı rayonunun coğrafi mövqeyi və iqlim şəraiti turizmin inkişafı üçün olduqca əlverişlidir. Rayon ərazisinin əsasən adalardan ibarət olması buna daha çox zəmin yaradır. Pirallahı adasının sahil boyu ən əlverişli yerləri ayrılmaq şərti ilə həmin ərazilərdə dənizkənarı bulvar, attraksionları olan istirahət parkı, otel, kafe, kütləvi çimərliklər, idman-konsert kompleksi, yaxt-klub, sörfinq klubu yaradılması üçün əlverişli şərait var. Yenidən qurulan Qala-Pirallahı yolu və Pirallahı körpüsü qəsəbə sakinlərinin, həmçinin turistlərin Heydər Əliyev prospekti ilə Bakının mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh, Binə və digər qəsəbələrə rahat çıxışına imkan yaradır. Turizmin inkişaf perspektivlərinin yüksək qiymətləndirildiyi Pirallahı, Gürgan və Çilovda inşa ediləcək istirahət mərkəzləri və komplekslər, otel və mehmanxanalar, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Əyləncə Mərkəzi ilə yanaşı, yeni tikilmiş körpünün altındakı 120 metrlik keçidin açılması ilə su idmanı növlərinin, o cümlədən yelkənli qayıqsürmə və avarçəkmənin inkişafı, yeni müasir çimərliyin, skuter gəzintilərinin, ada ətrafında gəmi kruizlərinin təşkili üçün əlverişli imkanlar yaranıb.

# Prezident İlham Əliyev Pirallahı qəsəbəsinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib

*İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı qəsəbəsinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*



**Sakinlər:** Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz.

**Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, sizi görməyimə şadam. Bu gün Pirallahı rayonunun həyatında çox əlamətdar bir gündür, içməli su layihəsi istifadəyə verilir. İndi həm Pirallahı qəsəbəsinə, həm Gürgan qəsəbəsinə təmiz içməli su veriləcəkdir. Bu, çox böyük hadisədir, siz yaxşı bilirsiniz ki, həmişə burada su problemi insanları çox narahat edirdi, incidirdi. İndi isə vətəndaşlara 24 saat ərzində təmiz, bütün ekoloji standartlara uyğun, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su verilir.

Bu, çox böyük layihədir, böyük vəsait tələb edən layihədir. Sırf sosial xarakter daşıyan layihədir ki, vətəndaşlar üçün təmiz içməli su verilsin. Çünki su insanın həyatında əsas amillərdən biridir. Su sağlamlıqdır, təmizlikdir və təmiz içməli su əlbəttə ki, hər bir insanın həyatında xüsusi yer tutur.



Son illərdə həm Bakıda, həm də demək olar ki, bütün bölgələrdə içməli su layihələri uğurla icra edilir. Bakı şəhərinin içməli su ilə təminatı yaxşılaşır. Hələ gələcəkdə görüləcək işlər var, çoxdur. Buraya çəkilən 80 kilometr uzunluğunda su xətti əlbəttə ki, böyük vəsait tələb edən layihədir. Çünki Ceyranbatandan Pirallahıya, Gürgana, eyni zamanda, Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinə su xətti çəkilib. Bir neçə il bundan əvvəl Ceyranbatan su anbarında böyük təmizləyici qurğular kompleksi istifadəyə verilmişdir. Bu da dünya miqyasında ən böyük təmizləyici qurğudur. Buna görə, Pirallahıya içməli suyun gətirilməsi doğrudan da böyük layihədir - həm texniki, həm maliyyə cəhətdən böyük zəhmət və vəsait tələb edən layihədir. Ancaq bu layihə artıq reallaşıbdır. Biz bunu etmişik və bu, burada yaşayan vətəndaşlar üçün çox gözəl hədiyyədir.

Bununla bərabər, biz Pirallahı rayonunun inkişafı ilə bağlı bütün digər məsələlərə kompleks şəkildə yanaşdıq. Burada bütün infrastruktur məsələləri həll olunur. Gözəl körpü tikilib. Həmin körpünün tikilməsi də bu bölgənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına hesablanıb. İndi Xəzər dənizinin təbii axını təmin olunub. Əvvəllər burada, dənizdə müəyyən durğunluq var idi. İndi isə bu körpünün altından dəniz suları axır, eyni zamanda, gələcəkdə gəmilərlə, yaxtalarla Bakıdan buraya gəlmək mümkün olacaq. Körpü də nəhəng bir infrastruktur layihəsidir, uzunluğu 700 metrdən çoxdur. Aeroport yolundan Pirallahıya dördzolaqlı geniş, gözəl yol salınıb. Bu da ən yüksək standartlara cavab verir. İndi bu yolla gəldim, adamın gözünü oxşayır. Əvvəlki yol nə vəziyyətdə idi, siz hamıdan yaxşı bilirsiniz.

Ona görə bu əsas infrastruktur layihələrinin icrası əlbəttə ki, yeni imkanlar yaradır. Qazlaşdırma tam təmin olunub, elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün biz yeni Günəş Elektrik Stansiyasının açılışını qeyd edəcəyik. Sosial infrastruktur yaradılır, 85 yerlik xəstəxana, bir neçə məktəb, istilik təchizatı, 70-dən çox yaşayış binası təmir olunub, parklar salınır, yeni müəssisələr yaradılır.

Azərbaycanda əvvəllər də, elə bu gün də dərman istehsalı fabrikləri demək olar ki, yoxdur. Biz birinci fabrikləri buraya saldıq. İki fabrikin tikintisi gedir. Oraya qoyulacaq sərmayənin həcmi təqribən 100 milyon dollara bərabərdir. Burada iş yerləri, yeni istehsal sahələri yaradılacaq. İndi balıqyetişdirmə müəssisəsinin təməli qoyulacaq, balıq bazarı tikilib. Baxın, bu günə qədər Bakı şəhərində balıq bazarı olmayıb. Bu, böyük çatışmazlıqdır. Çünki dəniz kənarında yerləşən şəhərlərin əksəriyyətində balıq bazarları olur. Bu balıq bazarları həm vətəndaşlara xidmət edir, eyni zamanda, bir növ turizm zonasına çevrilir. İndi burada gözəl bir kiçik bulvar salınıb, balıq bazarı var, balıq yetişdirmə müəssisəsi yaradılır. Turizmin inkişafı bundan sonra sürətlə gedəcək. Gürgan qəsəbəsində böyük turizm layihəsi var. İndi Pirallahı da gözəl bir cənnət yerə çevrilib. Burada həm Pirallahı, həm bütün Bakı sakinləri, Azərbaycan vətəndaşları və qonaqlar üçün çox gözəl şərait yaradılıb.

Bütün bu gözəl hadisələr münasibətilə sizi təbrik edirəm. Pirallahı gənc rayondur, beş ildir ki, yaradılıb. Yaranan gündən burada quruculuq-abadlıq işləri aparılıb. Sizi bir daha təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

**Ardı Səh. 4**



# Prezident İlham Əliyev Pirallahı qəsəbəsinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib



Əvvəli Səh.3-də

**Göstərilən diqqət və qayğıya görə rayon ictimaiyyəti adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən Ülkər ŞİRİNOVA:**

- Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz. Böyük qürur hissi ilə demək istəyirəm ki, şəxsən təşəbbüsünüzlə yaradılmış Pirallahı rayonu bu gün doğma Bakımızın hər gün çiçəklənən rayonlarından birinə çevrilməkdədir. Qeyd etmək istəyirəm ki, 150 ildən artıq yaşayış olan adada içməli suyun yoxluğu, Zirədən gələn, son zamanlar tamamilə şoranlaşmış texniki suyun gün ərzində cəmi bir saat verilməsi, içməli suyun isə maşınlardan alınması biz rayon sakinləri üçün çox ciddi problem idi. Şükürlər olsun ki, Sizin diqqət və qayğınız sayəsində rayonumuza içməli su xəttinin çəkilişi tam başa çatıb. Artıq hər bir Pirallahı sakininin mənzilinə 24 saat yüksək keyfiyyətli su veriləcək. Bununla Siz bizim rayonumuza yeni həyat bəxş etdiniz.

Möhtərəm Prezident, rayonumuzun hər bir sakini istərdi ki, hazırda mənim yerimdə dayanıb buna görə Sizə dərin təşəkkürünü bildirsin. Bu gün bu şərəf mənə nəsib olub, ona görə də mən bütün rayon sakinləri adından Sizə dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, ötən əsrin 80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin Pirallahıya səfərindən sonra burada yeni məktəb, uşaq bağçası, musiqi məktəbi açılmış, neft sektorunun inkişafına yeni nəfəs verilmişdir. Lakin sonrakı dövrlərdə diqqətdən kənarda qalan Pirallahıda azacıq külək əsən kimi işıqlarımız sönür, qazımız kəsilir, yağış yağanda küçələrimiz keçilməz olur, ada ilə şəhər arasında əlaqə tamamilə kəsilirdi. Sizin rayonumuza göstərdiyiniz diqqət və qayğı sayəsində isə Pirallahı başdan-başa yenidən qurulmağa başladı. Magistral və qəsəbədaxili yollar yeniləndi, müasir dayanacaqlar, işıqlandırma sistemləri quruldu, işıq, qaz, elektrik sistemləri təchizatı tamamilə yeniləndi, xüsusən də müasir tipli yeni körpü tikildi. Möhtərəm Prezident, IDEA İctimai Birliyinin yaxından dəstəyi ilə rayonumuzda geniş yaşıllıq zolaqları salınıb, 10 minlərlə ağac və gül kolu əkilib.

Cənab Prezident, 35 ildən artıqdır ki, rayonumuza çörək Bakının digər rayonlarından gətirilirdi. Yenə də Sizin dəstəyiniz sayəsində artıq bir neçə gündür ki, qəsəbəmizdə çörək zavodu işə düşmüşdür və biz yüksək keyfiyyətli müxtəlif çeşidli məhsulla təmin olunuruq. Bilirik ki, bu işlər də məhz Sizin qayğınız sayəsində öz həllini tapmışdır.

Fürsətdən istifadə edib, Mehriban xanıma da dərin minnətdarlığımı bildirirəm. Məhz Mehriban xanımın sayəsində rayonumuzun xəstəxanası, şəxsən mənim çalışdığım orta məktəb, eləcə də rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunub, uşaq bağçaları tikilib. Buna görə də bütün rayon sakinləri adından hamımızın sevimlisi Mehriban xanıma bir daha təşəkkürlərimi çatdırıram.

Cənab Prezident, Sizin çıxışlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, Pirallahı sənaye zonasına çevrilməklə yanaşı, turizmin inkişafı üçün də nadir coğrafi zonada yerləşir. İnanırıq ki, Siz bu sahəni də diqqətinizdə saxlayacaqsınız və yaxın zamanlarda Pirallahı doğma Bakımızın turizm mərkəzlərindən birinə çevriləcək. Hörmətli Prezident, Siz bizim rayonumuz üçün hər şey etmisiniz. Bu, göz qabağındadır. Sizin sayənizdə abad yolumuz, müasir körpümüz, təmirli binalarımız, geniş parklarımız, dadlı çörəyimiz və xüsusilə qeyd etmək istəyirəm ki, içməli suyumuz var. Buna görə də biz Pirallahı sakini olmaqdan qürur hissi duyur, Sizə dərin hörmət və ehtiramımızı çatdırırıq. Tanrı Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**X X X**

Sonra Azərbaycan Prezidenti "Pirallahı qəsəbəsinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə görülən işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.

Bildirildi ki, qəsəbənin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin və 84 kilometr uzunluğunda Ceyranbatan-Zirə magistral su kəmərinin istismara verilməsi Pirallahı qəsəbəsinin sakinlərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etməyə imkan yaradıb. Pirallahı rayonunun Pirallahı, Gürgan və Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinin dayanıqlı su təchizatı üçün 10 min kubmetr tutumu olan Zirə su anbarı tikilib. Pirallahı qəsəbəsini Abşeron yarımadası ilə birləşdirən yeni yolötürücüsünün tikintisi ilə əlaqədar Zirə-Pirallahı magistral su xəttinin körpü ərazisinə düşən hissəsi yenidən qurulub. Gəmilərin manevsiz hərəkəti üçün körpünün alt hissəsində hər bir istiqamət üzrə xüsusi konstruksiyalı keçid quraşdırılıb, yeni su və kanalizasiya xətləri onun üzərindən çəkilib. Layihə çərçivəsində Pirallahı qəsəbəsində 65 kilometr uzunluğunda yeni paylayıcı su şəbəkəsi inşa olunub, eyni zamanda, çoxmənzilli 35 yaşayış binasının daxili su təchizatı sistemləri yenidən qurulub. Zirə-Pirallahı xəttindən Gürgan qəsəbəsinin sakinləri də içməli su ilə təmin ediləblər. Hazırda Pirallahı və Gürgan qəsəbələrinin sakinləri 24 saat fasiləsiz, keyfiyyətli içməli su ilə təmin olunurlar. Qeyd edildi ki, Pirallahı qəsəbəsində mərkəzləşmiş su təchizatı sistemi ötən əsrin ortalarında yaradılıb. Bu layihənin icrasına qədər isə Zirə quyu zonasından qəsəbəyə həftədə cəmi bir gün olmaqla qrafik əsasında su verilirdi. Pirallahı qəsəbəsinin sakinləri içməli suya olan tələbatını maşınlarla daşınan su hesabına təmin edirdilər.

Prezident İlham Əliyev Pirallahı rayonuna təmiz içməli suyun verilməsini bildirən düyməni basdı. Sonra xatirə şəkli çəkdirildi. Sakinlər Pirallahı adasını sahillə birləşdirən yeni müasir körpünün inşasına görə dövlətimizin başçısına bir daha minnətdarlıq etdilər.

**Rayon icra hakimiyyətinin başçısı Vasif İMANOV:** Cənab Prezident, buradakı damba üzərindən dəfələrlə maşınlar aşaraq dənizə düşüb. Damba 1946-cı ildə tikilmişdi.

**Prezident İlham ƏLİYEV:** Çox təhlükəli idi, həm də ki, Xəzəri iki yerə bölürdü. Dənizdə həm durğunluq, həm də bataqlıq yaranırdı. İndi su tərtəmizdir.

**Sakin:** Yeni körpü dəniz səviyyəsindən 11 metr yüksəklikdədir.

**Prezident İlham ƏLİYEV:** Bəli, ona görə planlaşdırdıq ki, tam təhlükəsiz olsun.

**Vasif İMANOV:** Siz tapşırıq verdiniz ki, körpünün altından gəmilər keçə bilsin.



# "Pirallahı" Günəş Elektrik Stansiyası istifadəyə verilib



İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Pirallahı" Günəş Elektrik Stansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti stansiyanı işə saldı.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov dövlətimizin başçısına "Pirallahı" Günəş Elektrik Stansiyası layihəsinin texniki-iqtisadi göstəriciləri haqqında ətraflı məlumat verdi.

Bildirildi ki, layihənin məqsədi Pirallahı rayonunda əhalinin və sosial obyektlərin yerli alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji ilə təminatından ibarətdir. Ümumi layihə gücü 12/8 MVt olan layihənin icra müddəti 2014-2020-ci illəri əhatə edir. Birinci mərhələdə 2,8 MVt gücündə "Pirallahı" Günəş Elektrik Stansiyası layihəsinin 1,1 MVt-lıq hissəsi üzrə Pirallahı rayonunun şimal-şərq hissəsində iki hektar torpaq sahəsində tikinti-quraşdırma işləri başa çatdırılıb. Hazırda stansiya istismar təlimatına uyğun olaraq test rejimində fəaliyyət göstərir və bu il iyunun 1-i tarixinə 1,5 milyon kVt/s elektrik enerjisi istehsal edilib ki, bunun sayəsində 330 min kubmetr təbii qaza qənaət olunub.

Qeyd olundu ki, burada ümumilikdə 4400 günəş paneli quraşdırılıb. Layihə çərçivəsində "Bir ev-bir elektrik stansiyası" prinsipi əsasında Pirallahıda 235 nömrəli məktəbdə 25 kVt-lıq günəş elektrik stansiyası quraşdırılıb və Dövlət Agentliyi tərəfindən test rejimində istismar olunur. Növbəti illərdə bu stansiyanın məktəbin balansına verilməsi nəzərdə tutulub. Bundan əlavə, ərazidə 85 metr hündürlüyündə stasionar və "KamAZ" avtomobilinin bazasında səyyar inteqrə olunmuş Ölçü-Müşahidə Nəzarət Kompleksi yaradılıb. Bu kompleksə günəş müşahidə stansiyası, mobil külək müşahidə stansiyası, küləyin sürətini və istiqamətini ultrasəs metodu ilə ölçən "Dopler SODAR" daxildir. Kompleks ölkə üzrə istənilən ərazidə stasionar rejimdə hər 20 metr məsafədə və 20-300 metr hündürlükdə bütün geofiziki-metroloji parametrləri ölçməyə və təhlil etməyə imkan verir.

Prezident İlham Əliyevə "Azgüntex" zavodunda istehsalı nəzərdə tutulan günəş və külək texnologiyaları əsasında hazırlanan qurğu və avadanlıq barədə məlumat verildi. Dövlətimizin başçısına, həmçinin Dövlət Agentliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə olaraq günəş texnologiyasına əsaslanan küçə və istirahət parkları üçün "ağıllı" işıqlandırma sistemləri haqqında məlumat və nümunələr təqdim olundu. Bildirildi ki, bu sistemlər stasionar xarakter daşımaqla müstəqil rejimdə işləməyə qadirdir.

Alternativ və bərpa olunan enerji mənbələrinin geniş tətbiqi enerji təhlükəsizliyinin yüksəldilməsində, təbii qaza qənaət olunmasında, atmosferə atılan zərərli tullantıların azalmasında, ekoloji tarazlığın təmin olunması ilə innovativ inkişafın sürətlənməsində və yeni iş yerlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir.

# Prezident İlham Əliyev Bakının Pirallahı rayonunda "Nərəkənd" kompleksində yaradılan şəraitlə tanış olub





İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda balıq yetişdirmə ferması, park, iaşə, əyləncə və istirahət mərkəzini əhatə edən "Nərəkənd" kompleksində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə rayonda görülən işlər və kompleksdə yaradılan şərait barədə ətraflı məlumat verdi.

Qeyd edildi ki, "Nərəkənd" kompleksində inşa olunacaq qapalı və açıq tipli fermalarda yetişdirilən, habelə qanunvericiliyin tələblərinə zidd olmayan qaydada balıqçılar tərəfindən dənizdə tutulan balığın və balıq məhsullarının burada satışının təşkil olunması məqsədilə ərazidə balıqçı qayıqları üçün yanalma pontonları və zəruri normativlərə cavab verən ticarət məntəqəsi - balıq bazarı yaradılıb. Bu məntəqə dörd pavilyondan ibarətdir. Pavilyonlarda balığın satışı və saxlanması üçün lazımi şərait yaradılıb və müvafiq avadanlıq qurulub. Bundan başqa, kompleksdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "Dənizçi" İdman Klubunun yaradılması və yelkənli qayıqlarla üzmənin təşkil olunması nəzərdə tutulub. Bildirildi ki, kompleksin ətrafındakı ərazi yaşıllaşdırılıb, sahil zonası abadlaşdırılıb. Burada park salınıb, əhalinin istirahəti üçün yüksək şərait yaradılıb. Parkda oyun və idman meydançaları, uşaq guşəsi, sinema-kafe və digər istirahət obyektləri mövcuddur.

İndi Pirallahı rayonunun simasının mühüm elementinə çevrilən bu parkda yaradılan şərait bir daha təsdiqləyir ki, əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkil olunması, onların sosial tələbatının nəzərə alınması hər zaman diqqət mərkəzindədir və bununla bağlı ardıcıl tədbirlər görülür.

# Pirallahı rayonunda balıqyetişdirmə fermalarının təməli qoyulub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı rayonunda "Nərəkənd" layihəsi çərçivəsində yaradılacaq "CMS Properties" MMC-nin balıqyetişdirmə kompleksində qapalı və açıq tipli fermaların təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına müəssisə barədə məlumat verildi. Bildirildi ki, qapalı tipli fermada ildə 75 ton rus nərəsinin və 25 ton çökə ətinin, habelə 4 ton kürünün istehsalı nəzərdə tutulub. Həmin fermada dənizdən nəql olunan su süzgəcdən keçirilərək duruldulacaq, duzluluğu müvafiq səviyyəyə çatdırılacaq və qapalı sistemdə təkrar istifadə ediləcək. İlkin mərhələdə kompleksin fəaliyyətinin xaricdən alınacaq kürü hesabına, növbəti mərhələlərdə isə bu sistemdə cinsi yetkinliyə çatmış dişi nərə balıqlarından alınacaq kürü hesabına təmin olunması nəzərdə tutulub. Qapalı sistemdə yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən iki il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılacaq. Çökə balığından kürünün çıxarılması müddəti isə təxminən üç il təşkil edəcək. Qapalı tipli ferma Avropa ölkələrində istehsal edilən ən son texnologiyalarla təchiz olunacaq. Açıq tipli fermada isə ildə 50 ton rus nərəsinin yetişdirilməsi nəzərdə tutulub. Balıqyetişdirmə fermalarının doqquz aya işə salınması planlaşdırılır. Prezident İlham Əliyev balıqyetişdirmə fermalarının təməlini qoydu.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 iyul 2017-ci il

# Dünya ölkələri üçün daha bir nümunə

*Prezident İlham Əliyev: “Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim”*







Xəbər verdiyimiz kimi, ötən gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimi keçirilib. Jurnalistlər üçün inşa edilən ikinci binada 255 mənzil var. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 birotaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil var. Binanın həyətində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülüb.

Beləliklə də, Azərbaycanda növbəti tarixi hadisə yaşandı. Jurnalistlərə təmənnasız mənzil verən dövlət bu addımı ilə, nəinki regionun, hətta dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan özünəməxsus təşəbbüskarlıq və liderlik xüsusiyyətlərini qoruyub-saxlamaqda davam edir. Ölkəmiz bir çox sahələr kimi, demokratik dəyərlərin qorunmasına, söz və mətbuat azadlığının təmin edilməsinə, KİV-in maddi-texniki təminatının, jurnalistlərin sosial rifahının daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərir. Əlbəttə ki, bu siyasətin də əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Bu mənada, müstəqil Azərbaycanda milli mətbuatın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Xalqın tələbi ilə o zaman hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev ölkənin üzləşdiyi ağır ictimai-siyasi şəraitdə, iqtisadiyyatın iflic vəziyyətə düşdüyü bir dövrdə söz və mətbuat azadlığının təmin edilməsi, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxladı. 2003-cü ildən isə, bu proses, yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası əsasında mühüm layihələr icra edildi. Bu gün Azərbaycanda bütün azadlıqlar, o cümlədən mətbuat, söz və fikir azadlıqları tam təmin edilib. Azərbaycanda genişzolaqlı internet sərbəst şəkildə fəaliyyət göstərir. Ölkəmizdə KİV nümayəndələrinin rahat və təhlükəsiz fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Son illərdə isə, jurnalistlərin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra edilib.

Diqqətçəkən məqam odur ki, Prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək üçüncü yaşayış binasının da təməlini qoydu və müvafiq Sərəncam imzaladı. Beləliklə də, göründüyü kimi, 2010-2017-ci illərdə tikilib istifadəyə verilmiş iki və təməli qoyulan üçüncü binada mənzillərin ümumi sayı 666-ya çatacaq.

Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində çıxış edən Prezident İlham Əliyev bir daha diqqətə çatdırıb ki, mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə, jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə, artıq biz burada ikinci binanın açılışını qeyd edirik: “Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır”.

***“Səs” Analitik Qrupu***



# Əflatun Amaşov: “Prezidentlə hər görüş jurnalistlərdə əminlik yaradır”



*Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşovun APA-ya müsahibəsi*

**- Həm milli mətbuatımızın yaranmasının 142-ci ildönümünü qeyd edirik, həm də jurnalistlər üçün inşa edilmiş yaşayış binasının açılışı oldu. Təəssüratlarınızı bölüşməyinizi istərdik.**

- Cənab Prezidentin jurnalistlərlə görüşü özlüyündə mühüm hadisədir. Bu hadisənin iştirakçısı olmağımdan məmnunam. İnanıram ki, eyni hiss toplantı iştirakçılarının hamısına aiddir. Mərasimdəki çıxışımda bildirdim ki, peşəsindən asılı olmayaraq hər bir insanın mənzil sahibi olması, öz doğma ocağının istisinə sığınması qədər gözəl yaşantı yoxdur. Media təmsilçilərinə bu unudulmaz anı bəxş etdiyi üçün dövlət başçısına dərin təşəkkürümü bildirirəm. Cənab Prezidentlə hər görüş biz jurnalistlərdə əminlik yaradır. Bu əminlik ilk növbədə onunla əlaqədardır ki, media təmsilçilərimiz dövlətin birinci şəxsinin onların fəaliyyəti ilə maraqlandığını, bu fəaliyyətin az qala hər detalını diqqətdə saxladığını hiss edirlər. Cənab İlham Əliyevin açılış mərasimindəki çıxışı son dərəcə fundamental idi və tam bir proqram mahiyyəti daşıyırdı. Bu proqram jurnalistikamızın dünəninin və bu gününün təhlilindən, müasir dövrdəki vəziyyətinin, qarşıda duran vəzifələrinin, bir növ, məcmusundan ibarətdir.

Dünyanın informasiya məkanına inteqrasiya tədbirləri mühüm əhəmiyyət daşımaqdadır. Dövlət başçısının nitqindən gəldiyim növbəti qənaət budur ki, jurnalistikamızın beynəlxalq standartlara cavab verəcək struktura malik simasını görmək onu ciddi şəkildə düşündürür. Bu, ümumən medianın roluna konseptual baxış nümunəsidir. Ölkə başçısı çıxışında dünyada söz və ifadə azadlığı ilə bağlı müasir tendensiyaların izahını zərgər dəqiqliyi ilə verdi. Mövcud müstəvidəki konkret spekulyasiya motivlərinin təhlilini apardı və nəticəyə gəldi - Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır.

Biz jurnalistlər fəaliyyətimizdə dövlətimizin ali mənafeyini düşünməliyik. Bunu necə edə bilərik? Əlbəttə peşəkarlığımızla. Əgər biz peşəkarıqsa və qəlbimizlə bu vətənə xidmət etməyi düşünürüksə, o zaman şübhəsiz ki, müsbət nəticələrimiz olacaq. Öz şərtlərimizi diqtə edən tərəfə çevriləcəyik. Cənab Prezident zaman-zaman informasiya müharibəsində geri qaldığımızı dilə gətirdi. Ancaq həmin vəziyyətin artıq əhəmiyyətli dərəcədə xeyrimizə dəyişdiyini də müsbət məqam kimi xarakterizə etdi.

Vətəndaş üçün dövlətinin, Prezidentinin onun əməyini qiymətləndirməsindən ali hiss ola bilməz. Bu hissin təpədən dırnağadək hər bir jurnalistə hakim kəsildiyi açılış mərasimi eyni zamanda dövlət başçısının media təmsilçiləri ilə xoş və yaddaqalan fərdi təması, söhbətləri, fikir mübadilələri baxımından da əlamətdar oldu. Jurnalistlər dövlət başçısına onlara yaradılmış şəraitə görə minnətdarlıqlarını bildirdilər. Kifayət qədər səmimi mənzərəni müşahidə etdik, kövrək anlar yaşadıq.

Hesab edirəm ki, 20 iyul 2017-ci il tarixinin jurnalistlərimiz üçün ən kuliminasiya anı cənab Prezidentin onlar üçün növbəti - üçüncü binanın təməlini qoyması idi. Bu, yeni ümidlər, yeni gün üçün əzmlə çalışmaq istəyi və stimuludur. Bu, eyni zamanda jurnalistikanın nüfuzlu və rentabelli peşəyə çevrilməsi deməkdir. Mediaya sistemli dövlət qayğısı hər bir gəncin bu sahədə çalışaraq öz həyat şəraitini təmin etməsinin mümkünlüyü imkanlarını aktuallaşdırır. Mövcud istiqamətdə cəmiyyətdə müzakirələr gedir. Bir daha deyim ki, qeyd etdiklərim peşəmizi populyarlaşdırır. Bütün bunlara görə cənab İlham Əliyevə media ictimaiyyəti adından sonsuz minnətdarlığımı bildirirəm.

**- Ancaq kənarda qalan həmkarlarımız da var. Onların içərisində narazılıqlarını bildirənlərə də rast gəlinir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Mənzillərin sayı 255 idi. Ümumən birinci bina təhvil veriləndən bu yaxınlaradək mənzillə bağlı 3000-ə yaxın müraciət qeydə alınmışdı. Əlbəttə, onların müəyyən qismi təkrar müraciətlərdir. Sənədlər mərhələlərlə belə desək, ələndikdən sonra yekunda 255 müraciət üzərində dayanıldı. Təbii, haqqı çatan həmkarlarımız çoxdur. Onların müəyyən hissəsi mənzil sevincini yaşaya bilmədi. Ancaq bir anlığa onu da düşünək ki, seçilənlər jurnalistikamızın inkişafında xidmətləri olan, haqqı çatan, eyni zamanda ehtiyacı olan insanlardır. Uzun müddətdir səmərəli fəaliyyətləri ilə fərqlənmiş həmkarlarımızdırlar və mənzil sevincini ürək dolusu yaşamağa tam layiqdirlər.

Qeyd etdiyim kimi, cənab Prezident tərəfindən üçüncü binanın da təməli qoyuldu. Mən həqiqətən xidmətləri olan, ancaq mənzil sahibinə çevrilə bilməyən jurnalistləri təmkinli olmağa, həmkarlarının sevincinə şərik çıxmağa çağırıram. Əminəm ki, onlar da özlərinin mənzil arzularını gerçəkləşdirə biləcəklər.

Digər tərəfdən, istənilən prosesdə narazıların mövcudluğu labüddür. Nə də mütləq obyektivlik mümkündür. Mən də sosial şəbəkələri izləyirəm. Açığı etiraz edənlərin hamısının obyektiv olduğunu düşünmürəm. Nifrət, kin-küdurət yağdıranları ümumiyyətlə, anlamaq mümkünsüzdür. Hətta bəzilələri var ki, ümumi axarda hansısa məqsədlərini gerçəkləşdirmək, dövlətimizin media ilə bağlı siyasətinə kölgə salmaq yolu tutduqları gün kimi aydındır. Həqiqətən haqqı çatıb etiraz edənlər bu məqamı nəzərə almalıdırlar. Çünki bircilərin hay-küyü onların doğru mövqeyinin eşidilməsinə maneçilik törədir. İstərdim ki, bunları da düşünək. Kimsə kimisə üzdən tanımaya, onun harada çalışdığını bilməyə, xidmətlərinin, işinin nədən ibarət olduğunu anlamaya bilər. Ancaq bir daha bildirim ki, seçimdə Azərbaycan jurnalistikasının palitrasının əks olunduğunu görmək mümkündür. Əsas məsələ də budur və bu məqam prosesin ədalətli şəkildə başa çatdırıldığı barədə rəyin formalaşması üçün yetərlidir.

**- Açılış mərasimində prezident İlham Əliyevə “Jurnalistlərin dostu” mükafatı təqdim edildi...**

- Məlum olduğu kimi, Azərbaycan Mətbuat Şurası və “Ruh” Jurnalistlərin müdafİəsi ictimai birliyi iyunun 20-dən iyulun 15-dək olan müddətdə “Jurnalistlərin dostu” mükafatının qalibinin adının müəyyənləşdirilməsi məqsədi ilə sorğu keçirib.

Sorğu 15 jurnalist təşkilatı, 27 gündəlik qəzet, 20 həftəlik qəzet, 8 bölgə qəzeti, 14 informasiya agentliyi, 11 jurnal, 25 internet informasiya resursu, 12 telekanal və 4 radio olmaqla ümumilikdə 136 media qurumu arasında aparılıb. Sorğu anketlərinin hamısında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı çəkilib. Beləliklə dövlət başçısı “Jurnalistlərin dostu” mükafatının 2017-ci il üçün qalibi seçilib.

Biz mükafatın təqdimatı ilə jurnalistlər üçün yeni inşa edilmiş binanın açılışı eyni vaxta təsadüf etməsini düşündük. Çünki yuxarıdakı rəqəmlərdən də görünür ki, sorğuda iştirak etmiş respondentlər bütövlükdə ölkəmizin media palitrasını təşkil edirlər və onların seçimi bir növ minnətdarlıq jestidir.

Ümumən onu da vurğulayım ki, “Jurnalistlərin dostu” mükafatı Prezident-media dostluğunun simvoluna çevrilib. Mükafatın əsasnaməsində də onun cəmiyyətdə söz və mətbuat azadlığı prinsiplərini təbliğ və inkişaf etdirmək, media ilə dövlət qurumlarının, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin və siyasi partiyaların əlaqələrinin möhkəmləndirilməsinə kömək göstərmək, kütləvi informasiya vasitələrinə qayğı ənənələrini stimullaşdırmaq məqsədilə təsis edildiyi vurğulanır. Bütün bunlar gələcək nəsillərə ötürülməsi vacib olan ali dəyərlərdir və çox qürurvericidir ki, bu dəyərlər Azərbaycan dövlətinin media siyasətində də əksini tapmaqdadır. Biz belə xoş günlərdə bu siyasətin memarı olan Ulu Öndər Heydər Əliyevi minnətdarlıq hissləri ilə anırıq. Ona 2002-vi ildə “Jurnalistlərin dostu” mükafatının təqdim edildiyi anları xatırlayırıq. Keçmişlə bu günün müqayisəsini aparırıq. Həmin vaxt Azərbaycan mediası hansı mərhələyədi, indi hansı mərhələdə? Hesab edirəm ki, ürəyi cəmiyyətin nəbzi ilə vuran hər bir jurnalist reallıqları görür, onu yüksək qiymətləndirir. Bütün bunlara görədir ki, cənab İlham Əliyev jurnalistlərimizin dostudur və əminliklə deyə bilərəm ki, bu, artıq əbədi dostluqdur.

**- Azərbaycan mətbuatının 142 yaşı tamam olur. Milli mətbuatımızın keçdiyi yolu xarakterizə edərkən hansı məqamları qabartmaq mümkündür?**

- Əsası “Əkinçi” qəzeti ilə qoyulmuş Azərbaycan mətbuatı XX əsrin əvvəllərindən başlanmış milli özünüdərk mücadiləsində müstəsna rol oynadı. Dövrün görkəmli ziyalılarının və maarifçilərinin, əməksevər vətənpərvərlərinin vahid cəbhəsini müəyyənləşdirən mətbuat öz səhifələrində dövlət suverenliyinin ideya-nəzəri istiqamətlərini canlandırdı. Ancaq Vətənimiz Azərbaycanın 1918-ci ildə qazanılmış dövlət müstəqilliyi cəmi 23 ay çəkdi.

SSRİ-nin qurulması ilə başlanmış dövrün sərt idarəçilik forması Azərbaycan mətbuatına da mənfi təsirini göstərdi. Ancaq 70 illik imperiya əsarəti onu Həsən bəy Zərdabi ənənələrindən, Əlimərdan bəy Topçubaşovun, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun, Məhəmməd Əmin Rəsulzadənin və digər dühaların miras qoyduğu irsdən uzaqlaşdırmadı. Əksinə həmin irsə bağlı jurnalistlər nəsli formalaşdı ki, məhz həmin nəsil özünün peşəkarlıq vərdişlərinə həssas tarixi keçmişin yaşantılarını qataraq Azərbaycanın istiqlalına gedən yolu işıqlandırdı. Ümumən mətbuatımızın 142 ili fəxarət tariximizdir. Ötən 142 ildə peşəmiz cəmiyyətlə birgə addımladı, onun avanqardına çevrildi. Əlbəttə, çətinliklərimiz də az olmadı. Ancaq müqayisə aparsaq, irəliləyişlərimiz və konkret uğurlarımız çoxdur.

Bu gün Azərbaycan mediası Qafqaz regionu ilə bağlı son dərəcə etibarlı informasiya mənbəyinə çevrilib. Bu, konkret nəticədir. Sual oluna bilər ki, belə bir nəticə necə əldə olunub? Mən niyyət məsələsini qabartmaq istərdim. Azərbaycanda medianı azad və müstəqil görmək istəyən, onun 142 illik tarixini xalqın şərəf yolu, dövlətimizin mövcudiyyət formulu kimi dəyərləndirən hakimiyyət var.

Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin mətbuatla bağlı islahatları müstəqillik dövrü media tariximizin müstəsna mərhələləridir. 1998-ci ildə senzuranın ləğvindən, mediamızın, bir növ, dövlətsizləşdirilməsindən, Mətbuat Şurasının yaradılmasından, mediamızın hüquqi bazasının zənginləşdirilməsindən tutmuş jurnalistlərin sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasınadək hər bir məqam üzərində xüsusi dayanmaq mümkündür. Media əhli peşə bayramından söhbət düşəndə deyir ki, 22 iyul hər birimizin Həsən bəy Zərdabi ruhu önündəki hesabatıdır. Bayramın bayrama qarışdığı bu günlərdə mən jurnalistlərimizə ilk növbədə həmin hesabatı alnı açıq, üzü ağ verməyi arzulayıram. Bunun üçün isə qarşıda duran ən mühüm vəzifə yüksək peşəkarlıq xüsusiyyətlərinə yiyələnmək, əldə edilən bilikləri və təcrübəni bir qədər də dərinləşdirmək və ümumilikdə mətbuatımızın səviyyəsini yüksəltmək, onun vətəndaş cəmiyyəti quruculuğu prosesində daha aktiv iştirakına nail olmaqdır.

## “Jurnalistlərin evlə təmin olunması geniş və tayı-bərabəri olmayan addımdır”



“Azərbaycan dövləti mətbuata hər zaman açıq şəkildə dəstək verib və azad sözün qorunması istiqamətində öz dəstəyini əsirgəməyib. Son illər ərzində Azərbaycan mətbuatının inkişafı, jurnalistlərin sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar isə kifayət qədər geniş və tayı-bərabəri olmayan addımlardır”. Bunu SİA-ya açıqlamasında “Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib.

Onun sözlərinə atılan addımların hər biri ilk növbədə Prezident İlham Əliyevin Azərbaycan mətbuatına nə qədər diqqət yetirdiyini nümayiş etdirir: “Həm 2013-cü ildə, həm də ötən gün dövlət tərəfindən ev verilən jurnalistlərin hər biri ölkənin müxtəlif sferasını təmsil edirlər. Onlara münasibətdə hər hansı bir formada ayrı-seçkiliyə yol verilmir. Təbii ki, dövlətin jurnalistlərə verdiyi dəstək müqabilində mətbuatdan hər hansı bir istəyi, umacağı yoxdur. Dövlət hamının dövləti, prezident də hamının prezidentidir”. E. Mirzəbəyli qeyd edib ki, Azərbaycan Prezidenti atdığı addımlarla bütövlükdə mətbuatın dostu, ölkə vətəndaşlarının prezidenti olduğunu uzun illərdir ki, əməldə sərgiləyir: “Ölkə başçısının verdiyi dəstək nəticəsində Azərbaycan mətbuatının maddi-texniki bazası kifayət qədər möhkəmlənib, sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılıb”. Dövlət başçısı tərəfindən təqdim edilən konsepsiya əsasında Azərbaycan mediasının yeni inkişaf mərhələsi yaşadığını dilə gətirən baş redaktor bildirib ki, ölkə mətbuatı Milli Mətbuatın 143 illiyinə tamamilə xoş ovqatla daxil olur və əminik ki, bundan sonra da dövlət Azərbaycan mediasının yanında olacaq.

# "Dövlətimizin başçısı jurnalistlərin yaxın dostu və böyük himayədarı olduğunu növbəti dəfə təsdiqlədi"



*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərlinin yap.org.az-a müsahibəsi*

**- Vüqar müəllim, bu günlərdə Azərbaycan Milli Mətbuatının yaranmasının 142-ci ildönümü tamam olur. Müxtəlif tarixi inkişaf mərhələlərindən keçmiş mətbuatımızın mövcud mənzərəsi ilə bağlı qənaətiniz maraqlı olardı...**

- Bu günlərdə yaranmasının 142-ci ildönümü tamam olacaq Azərbaycan milli mətbuatı çətin, lakin eyni zamanda şərəfli və qürurlu yol qət edib. Milli mətbuatımız cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun mürəkkəb təkamül yolu keçərək hazırkı səviyyəyə yüksəlib. Fikrimcə, ən ümumi şəkildə milli mətbuatın inkişaf tarixini 4 əsas mərhələyə bölmək olar: birincisi, əsası 1875-ci ilin 22 iyulunda qoyulmuş "Əkinçi" qəzetindən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər olan dövr; ikincisi Cümhuriyyət dövrü; üçüncüsü, sovet dövrü; dördüncüsü müstəqillik dövrü. Əlbəttə, bu mərhələlərin hər birinin mətbuatımızın inkişafında özünəməxsus yeri və rolu var. Lakin əminliklə deyə bilərik ki, milli mətbuatımızın ən dinamik inkişafı və cəmiyyətin real tribunasına çevrilməsi məhz sonuncu mərhələyə - yeni müstəqillik illərinə təsadüf edir.

Etiraf etməliyik ki, müstəqilliyin ilk illərində müəyyən obyektiv və subyektiv səbəblər üzündən ölkənin yeni formalaşan mətbuat orqanları ciddi məhrumiyyətlərlə, çətinliklərlə üzləşmişdilər. Həmin dövrdə ölkədə hökm sürən gərgin ictimai-siyasi vəziyyət, Ermənistanın hərbi təcavüzünün doğurduğu ağır sosial-iqtisadi və psixoloji durum, iqtisadi tənəzzül fikir, söz, məlumat azadlıqlarının təminatına ciddi maneələr yaradırdı. Mövcudluğunu qoruyub saxlamağa çalışan o zamankı iqtidar çıxış yolunu yeni təşəkkül tapmaqda olan müstəqil mətbuata təzyiqləri gücləndirməkdə görürdü. 1992-ci ildə hərbi senzuranın tətbiqi adı altında mətbuat üzərində nəzarət daha da gücləndirilmişdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə Azərbaycan mətbuatının inkişafında keyfiyyətcə yeni mərhələ başlandı. Həmin dövrdən respublikada mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı.

**- Müstəqillik illərində mətbuatın ictimai nəzarət institutu olaraq yeni demokratik cəmiyyət quruculuğu prosesində rolu daha da güclənib. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən islahatların praktik əhəmiyyətini necə dəyərləndirirsiniz?**

- Ulu öndər Heydər Əliyev demokratik dəyərləri, insan hüquq və azadlıqlarını, sosial ədalət prinsipini uca tutan rəhbər kimi kütləvi informasiya vasitələrinin cəmiyyətdəki roluna daim böyük önəm verirdi. Ümummilli liderin rəhbərliyi ilə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün prioritet inkişaf modeli kimi qəbul edən Azərbaycan 1993-cü ildən fikir, söz və məlumat azadlıqlarının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu. 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququ təmin edildi.

Ulu öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük, tarixi xidməti 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğvidir. Senzuranın mövudluğu şəraitində medianın müstəqilliyindən danışmaq, əlbəttə ki, mümkün deyildi. Belə bir şəraitdə ulu öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixdə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman kütləvi informasiya vasitələrinin inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda mühüm addım oldu. Bu qətiyyətli addım "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının ilk dəfə senzuradan tamamilə azad edilməsi, yeni müstəqil medianın fəaliyyəti üçün geniş imkanların açılması demək idi.

Həmin dövrdə Azərbaycanın özünün iqtisadi imkanlarının nisbətən zəif olmasına baymayaraq, ulu öndər Heydər Əliyev maliyyə vəziyyəti ağır olan qəzetlərə maddi-texniki dəstəyin göstərilməsi təşəbbüsü ilə çıxış edirdi. 90-cı illərin ortalarında qəzetlərə birdəfəlik yardımlar, subsidiyalar verilirdi. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli fərmanı "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər proqramı" jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsini, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə əlaqədar problemlərin həlli məqsədilə Əlaqələndirmə Şurasının yaradılmasını önə çəkirdi. Eyni zamanda, proqramda KİV subyektləri tərəfindən dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələrinin icarəsi və telefon rabitəsi üzrə müəyyən olunmuş tariflərin minimum məbləğdə ödənilməsi nəzərdə tutulmuşdu.

Ümumilikdə, ulu öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Kütləvi İnformasiya Vasitələri haqqında", 19 iyun 1998-ci il tarixli "Məlumat azadlığı haqqında", 10 iyun 1997-ci il tarixli "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", 3 aprel 1998-ci il tarixli "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və digər qanunlar mətbuatın azad və müstəqil fəaliyyətinin təmin edilməsi sahəsində yaxşı imkanlar açdı.

Milli Məclisin 2001-ci il 13 mart tarixində "Gömrük tarifi haqqında" qanuna etdiyi dəyişikliyə əsasən, kütləvi informasiya vasitələri məhsullarının ixracına, habelə fəaliyyətinin təşkili üçün idxal etdikləri avadanlıq, zəruri xammal və digər vasitələrə görə gömrük rüsumundan, o cümlədən əlavə dəyər vergisindən azad edildilər. Sonrakı mərhələdə ulu öndərin humanist addımlarından biri də çoxlu sayda qəzetin "Azərbaycan" nəşriyyatına olan borclarının 2005-ci ilədək dondurulması oldu. Bu addım, faktiki olaraq, bir çox qəzetləri tamamilə qapanmaq təhlükəsindən xilas etdi.

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğvi kütləvi informasiya vasitələrinin təsis olunmasını və onlardan istifadə qaydalarını qat-qat asanlaşdıraraq bu sahədəki maneələri tamamilə aradan qaldırdı. Azərbaycanda mətbu nəşrlərin qeydiyyatı ilə bağlı icazə sistemi aradan qalxıb və da inkişaf etmiş bir sıra Qərb ölkələrinin mətbuata dair qanunvericilik təcrübəsinə əsaslanır. Qeydiyyat sahəsində əngəllərin aradan qalxması söz azadlığı qarşısında baryerlərin əsaslı şəkildə aradan qalxmasını təmin etdi.

Ölkə rəhbərliyi demokratik inkişafın qarantı qismində çıxış etdiyi üçün mətbuatda özünütənzimləmə funksiyasını həyata keçirən Mətbuat Şurasının yaradılmasını mətbuat nümayəndələrinin öz öhdəsinə buraxdı. 2003-ci ilin martında ölkə jurnalistlərinin birinci qurultayında Mətbuat Şurası təsis edildi.

Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan mətbuatının yubileylərinin keçirilməsi kimi mütərəqqi ənənənin əsası da məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Hələ 2000-ci ildə ulu öndərin müvafiq sərəncamı ilə Azərbaycan milli mətbuatının yaranmasının 125 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdi. Ulu öndər həmin tədbirdə dərin məzmunlu geniş nitq söyləyərək mətbuatımızın qarşısında duran vəzifələrdən söz açmışdı.

Ümummilli lider bütün bunlarla yanaşı, ölkə mətbuatının qüsurlarını, problemlərini də hər zaman açıq şəkildə bildirir, jurnalistləri milli-mənəvi, etik dəyərlərə riayət etməyə çağırırdı. Ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının 1999-cü və 2001-ci ildə keçirilmiş birinci və ikinci qurultaylarında kütləvi dövlətin informasiya vasitələrinin fəaliyyətinin daha da müstəqilləşməsi, demokratikləşməsi istiqamətində apardığı siyasətin hüquq islahatlarının ayrılmaz hissəsi olduğunu vurğulamış, bu sahədə qarşıda duran vəzifələrdən söz açmışdı.

**- Son illər Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyətinin qlobal informasiya əsrinin tələblərinə uyğunlaşdırılması istiqamətində atılan addımlar barədə nə demək istərdiniz?**

- Kütləvi informasiya vasitələrinin son 14 ildə dinamik inkişaf yolu keçməsi ulu öndərin mütərəqqi ənənələrinin layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mühüm xidmətləri ilə bağlıdır. Möhtərəm Prezident İlham Əliyev respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin təmin edilməsinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə yönəlmiş bütün mütərəqqi təşəbbüsləri dəstəkləyir. Dövlətimizin rəhbəri milli mətbuatımızın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla və xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etdirilməsini vacib sayır.

Mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ölkə başçısının 2006-cı il fevralın 8-də imzaladığı "Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi barədə" sərəncama əsasən, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan 450 min ABŞ dolları məbləğində borcu dövlət büdcəsi hesabına ödənildi. Xüsusi qeyd etmək lazımdır ki, borcları ödənilən qəzetlər sırasında müstəqil və müxalifyönlü qəzetlər çoxluq təşkil edirdi.

Milli mətbuatın 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, 2005-ci ildə "Əməkdar jurnalist" fəxri adının bərpası, yüzlərlə jurnalistin yüksək fəxri adlara, təltiflərə layiq görülmələri, qəzetlərə birdəfəlik maliyyə yardımlarının edilməsi, KİV əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış binalarının tikilməsi və digər mühüm tədbirlər ölkə rəhbərinin mətbuata qayğısını əyani şəkildə nümayiş etdirir.

**- Vüqar müəllim, dövlətin mediaya qayğısının ən bariz nümunələrindən biri də Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, fəaliyyətinə hərtərəfli dəstəyin verilməsidir. Fondun yaradılması hansı zərurətlə şərtlənirdi?**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, ilk növbədə, kütləvi informasiya vasitələrinə dövlət dəstəyini gücləndirmək, onun daha təkmil mexanizmini formalaşdırmaq məqsədi daşıyırdı. Belə bir konsepsiyanın hazırlanması və qüvvəyə minməsi ilə faktiki olaraq milli mətbuatın inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu.

Konsepsiya mükəmməl sənəd olaraq özündə mediaya dövlət dəstəyinin məqsəd, prinsip və mexanizmlərini əks etdirir. Həmin Konsepsiyadan irəli gələn vəzifələrin gerçəkləşdirilməsi üçün ölkə başçısının 3 aprel 2009-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət

Dəstəyi Fondu yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması ilə dövlətin KİV-lərə dəstəyi daha dolğun, sistemli və ardıcıl xarakter aldı. Fondun yaradılması ölkə başçısının kütləvi informasiya vasitələrinin inkişafına və jurnalistlərin sosial qayğılarının həllinə necə böyük həssaslıqla yanaşdığını bir daha təsdiqlədi. Hesab edirəm ki, belə bir dövlət qurumunun yaradılması ilə ölkə jurnalistlərinin arzu və istəkləri gerçəkləşdirildi, onların bütün sahələrdə dinamik inkişaf edən, müasirləşən Azərbaycanın nailiyyətlərindən daha səmərəli şəkildə bəhrələnməsi üçün geniş imkanlar açıldı.

Fond yeni yaradılanda şübhəsiz ki, hansısa ənənəyə, praktiki iş təcrübəsinə istinad etmirdi və bütün işləri sıfırdan başlamaq tələb olunurdu. Buna baxmayaraq, Konsepsiya, eləcə də Nizamnamə ilə üzərimizə düşən vəzifələrin uğurla həyata keçirilməsini təmin etmək üçün tamamilə şəffaf və işlək mexanizmlər formalaşdıra bildik.

Beynəlxalq təcrübə, daha dəqiqi, xarici ölkələrdə mətbuata dövlət dəstəyini həyata keçirən oxşar qurumların fəaliyyəti ilə yaxından tanış olmaq istiqamətində həyata keçirdiyimiz addımlar praktiki nəticələrini verdi. Fondun icraçı direktoru və Müşahidə Şurası üzvlərinin hələ 2009-cu ildə Avstriyanın Vyana və İsveçin Stokholm şəhərlərinə işgüzar səfərləri beynəlxalq təcrübənin öyrənilməsi baxımından kifayət qədər əhəmiyyətli oldu.

Ötən 8 ildə Fond həm də ölkə jurnalistlərinin beynəlxalq təcrübə ilə yaxından tanış olmaları üçün müvafiq tədbirlər həyata keçirilib. Ötən müddətdə jurnalistlərin Türkiyə Cümhuriyyətinə, İçveçə və Avstriyaya, Türkiyəyə və Şimali Kipr Türk Cümhuriyyətinə, Böyük Britaniyaya səfərləri təşkil olunub. Ölkə jurnalistləri bu səfərlər zamanı həmin ölkələrin aparıcı qəzetlərinin, habelə televiziya və radioların redaksiyalarında olub, onların iş üslubu ilə yaxından tanışlıq imkanı qazanıb, təcrübə mübadiləsi ediblər.

8 il ərzində Fonda dövlət büdcəsindən 31 milyon manata yaxın vəsaitin ayrılması bir daha göstərir ki, Azərbaycan dövləti mediaya yüksək diqqət və qayğı göstərir. Bu qayğının müqabilində Fond da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Qürur hissi ilə qeyd etmək istərdim ki, müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlar Fondun fəaliyyətini, habelə ölkə rəhbərliyinin söz və mətbuat azadlığının genişləndirilməsi sahəsində həyata keçirdiyi sistemli tədbirləri yüksək dəyərləndirirlər.

**- Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası ilə Fond qarşısında müəyyənləşdirilmiş mühüm vəzifələrdən biri də KİV-lərin fəaliyyətinin müasir dövrün tələblərinə uyğun qurulmasıdır. Fondun bu istiqamətdəki fəaliyyəti barədə də məlumat verməyinizi xahiş edərdik.**

- Şübhəsiz, cəmiyyətin maraqlarını ifadə edən müstəqil və demokratik mətbuatın formalaşması üçün, ilk növbədə, peşəkar jurnalistlərin yetişdirilməsinə, habelə KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsinə ehtiyac duyulur. Fond ötən 8 ildə məhz bu reallıqdan çıxış edərək bir sıra səmərəli layihələr həyata keçirib. Metodiki, konsultativ və təşkilati-texniki dəstək xarakterli bu tədbirlər Fondun maliyyə yardımı ilə layihə həyata keçirən KİV-lərin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlib.

Bundan əlavə, Fond redaksiyalarda maliyyə-mühasibat uçotunun düzgün qurulması, KİV-lərin fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması üçün baş redaktorlara, layihə koordinatorlarına və mühasiblərə lazımi köməklik göstərib. Bunun nəticəsində Fonddan maliyyə dəstəyi alan KİV-lərin əksəriyyətinin maliyyə-mühasibat uçotunun qanunvericiliyə müvafiq qaydada qurulmasına nail olunub.

Kütləvi informasiya vasitələrinin səmərəli fəaliyyətinə zəruri təşkilati-texniki dəstəyin göstərilməsi məsələsi də Fondun xüsusi diqqət mərkəzində olub. Fondun maliyyə yardımı hesabına ötən illərdə ictimai rəyə təsir imkanı olan bir çox qəzetlər maddi-texniki bazalarını gücləndiriblər.

**- Fondun fəaliyyətinin prioritet istiqamətləri üzrə həyata keçirilmiş digər layihələr barədə nə deyə bilərsiniz?**

- Qeyd etdiyim kimi, Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri qəzetlərə maliyyə yardımının göstərilməsidir. Konsepsiyada əksini tapmış 19 istiqamət üzrə layihələrin həyata keçirilməsi üçün Fond ildə 2 dəfə müsabiqə elan edir. Bu müsabiqələrin şərtlərinə cavab verən qəzetlər həmin istiqamətlər üzrə 6 ay ərzində layihələr icra edirlər. Fond həmin layihələrin monitorinqini həyata keçirir və hər ayın sonunda qəzetlərə növbəti maliyyə vəsaitini ayırır.

Fondun maliyyə dəstəyi ilə icra edilən layihə mövzuları cəmiyyət həyatının ən müxtəlif sahələrini əhatə edir. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu, fikir, söz və məlumat azadlığının, plürazlizmin inkişaf etdirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya birliyinə inteqrasiyası, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi, regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi və mühüm əhəmiyyət kəsb edən digər mövzular mətbuatda geniş işıqlandırılır, təhlil edilir.

Konkret olaraq bildirim ki, 2016-ci ildə və 2017-ci lin birinci yarısında gündəlik, günaşırı və həftəlik nəşr olunan 33 qəzetin təqdim etdiyi layihə təklifləri Fondun tələblərinə cavab verdiyi üçün onlara maliyyə vəsaiti ayrılıb. Həmin qəzetlərdə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda nəzərdə tutulmuş 19 istiqamət üzrə 9 min səhifədən çox yazı dərc edilib, eyni zamanda həmin qəzetlərin internet səhifələrində yerləşdirilib.

Xüsusi vurğulamaq istərdim ki, Fond qəzetlərə maliyyə yardımı göstərməklə yanaşı, KİV-lərdə Azərbaycanın ədəbi dilinin qorunması məsələsinə də xüsusi diqqət ayırır. Fondun maliyyə dəstəyi ilə hər il "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzusunda layihələr həyata keçirilir. Layihələr 6 ay müddətində icra edilir, aparılan monitorinqlər zamanı Azərbaycan media və teleradio məkanının dil problemləri araşdırılır, onun tənzimlənməsi yolları müzakirə edilir, müvafiq təkliflər verilir.

Fond, həmçinin Azərbaycan Mətbuat Şurasının "Ahıl jurnalistlərə qayğı: keçmişimizə ehtiram gələcək üçün təcrübə qaynağımızdır" mövzusunda layihəsinin maliyyələşdirilməsi üçün vəsait ayırıb.

**- Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinə ildən-ilə marağın artdığını müşahidə edirik...**

- Doğru qeyd edirsiniz, Fondun keçirdiyi müsabiqələrə maraq ildən-ilə artır. "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dəstəyi Konsepsiyası"na müvafiq olaraq 19 istiqamət üzrə keçirilən bu müsabiqələrin başlıca məqsədi jurnalistlərin peşəkarlıq səviyyəsini yüksəltmək, yaradıcı əməyini stimullaşdırmaq, sosial vəziyyətlərini yaxşılaşdırmaq, habelə dövlətin və ictimaiyyətin maraqları baxımından vacib əhəmiyyət daşıyan mövzuların mediada işıqlandırılmasını təmin etməkdir. Ənənəvi olaraq ildə 3 dəfə - Novruz bayramı, 22 iyul - Milli Mətbuat Günü, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilən bu müsabiqələrin hər birində yüzlərlə jurnalist qələmini sınayır.

Bu müsabiqələr, ilk növbədə, sağlam rəqabət mühiti formalaşdıraraq jurnalistlərin aktual mövzular üzrə yazılar hazırlamalarına, onların yaradıcılıq vərdişlərinin, peşəkarlıqlarının yüksəlməsinə, ümumən yeni tədqiqat və araşdırmaların aparılmasına stimul yaradır. Müsabiqələrə təqdim edilən yazıların ilbeil həm məzmun, həm də formaca təkmilləşməsi, jurnalistlərin fərdi yaradıcılıq keyfiyyətlərinin, yazı üslubunun püxtələşməsi keçirilən müsabiqələrin müstəsna əhəmiyyətini bir daha aşkara çıxarır. Fond yaranandan çoxlu sayda jurnalist bu müsabiqələrdə iştirak edərək peşəkarlıqlarını artırmaqla bərabər, sosial vəziyyətlərini yaxşılaşdırmaq imkanı əldə etmişlər. Ümumiyyətlə, Fond ötən 8 ildə Bakının Qaradağ, Səbail, Nizami, Binəqədi, Nəsimi, Suraxanı rayon icra hakimiyyətləri, habelə Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm, Ekologiya, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Dövlət Statistika Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Milli Olimpiya Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Müəllif Hüquqları Agentliyi, "Azərbaycan Hava Yolları", "Azərsu", "Azərişıq" və "Azərilmə" ASC-lərlə birgə fərdi jurnalist yazıları müsabiqələri təşkil edib.

2016-ci ildə bilavasitə Fond tərəfindən və digər qurumlarla birgə keçirilmiş 11 müsabiqədə 816 nəfər jurnalist iştirak edib, onlardan 445 nəfəri qalib olaraq mükafatlandırılıb. Eyni zamanda, 2017-ci ilin birinci yarısında Fondun Novruz bayramı və Milli Mətbuat Günü münasibətilə, eləcə də "Azərsu", Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Müəllif Hüquqları Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrində 500 nəfərədək jurnalist iştirak edib, onlardan 300 nəfərədək jurnalist qalib olaraq mükafatlandırılıb.

Müşahidələrimiz göstərir ki, jurnalistlər sivil rəqabət şəraitində keçən bu müsabiqələrdə uğur qazanmaq üçün yazılar üzərində daha səylə, məsuliyyətlə işləyirlər. Onu da qeyd edim ki, Fond 2009-2015-ci və 2016-cı illərdə keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinin qaliblərinin yazılarının seçmə qaydada ən yaxşılarını toplayaraq ötən il "Sözün zirvəsində" adlı kitab nəşr etdirib. Bu addım müsabiqələrdə seçilmiş yazıların bir topluda qorunub saxlanılması ilə yanaşı, jurnalistika sahəsinə yeni qədəm qoymuş şəxslər üçün metodik vəsait və nümunə yaratmaq məqsədi daşıyır. Bu ənənənin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**- KİV-lərin dövlət qurumları ilə əlaqələrinin genişləndirilməsi Fondun Nizamnaməsində əksini tapmış prioritet məsələlərdəndir. Bu sahədə hansı tədbirlər həyata keçirilir?**

- Bəli, kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında münasibətlərin inkişaf etdirilməsi məsələsi KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında və Fondun Nizamnaməsində əksini tapıb. Biz bu məsələni daim diqqət mərkəzində saxlayaraq bir sıra mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə xidmət edən tədbirlər keçirmişik. Ötən 8 ildə Fond media rəhbərlərinin iştirakı ilə Bakının Səbail, Nizami, Suraxanı, Qaradağ, Binəqədi, Yasamal rayonlarında, bölgələrdən - Yevlax, Şəmkir, Zərdab, Qəbələ, Masallı, Quba, İmişli rayonlarında, Gəncə, Lənkəran, Naxçıvan şəhərlərində "Mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın inkişaf etdirilməsi" və "İnformasiya əldə etmək haqqında" qanunun şərhi sahəsində region KİV-nin maarifləndirilməsi" mövzularında konfranslar təşkil edib.

Yüksək fəallıq şəraitində keçən bu tədbirlərdə həmin rayonların rəhbər vəzifəli şəxsləri, ictimaiyyət nümayəndələri və media rəhbərləri iştirak edərək qarşılıqlı faydalı müzakirələr aparıblar. Belə görüşlər dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında qarşılıqlı etimadın güclənməsinə və sivil əməkdaşlığın formalaşmasına şərait yaradır.

Bundan əlavə, 2016-cı ilin "Azərbaycanda multikulturalizm ili" elan edilməsi ilə bağlı Fond 2016-cı ilin avqust ayında Xaçmaz, dekabr ayında İsmayıllı rayonlarında etnik-dini icmaların və KİV nümayəndələrinin iştirakı ilə "Azərbaycanda multikultural dəyərlər: mədəni müxtəliflik və sivil birgəyaşayış məkanı" mövzusunda regional konfranslar keçirib. Bundan başqa, ötən il Fond "Azərbaycanda multikulturalizm ili" çərçivəsində Mədəniyyət və Turizm Nazirliyi ilə birgə "Azərbaycan - multikulturalizm məkanı: BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu ölkəmizə nə vəd edir?" və "BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu: Azərbaycan multikulturalizmi dünyada mütərəqqi model kimi qəbul olunur" mövzusunda iki fərdi jurnalist yazıları müsabiqəsi təşkil edib. Bundan əlavə, 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi ilə əlaqədar Fond 2017-ci ilin aprel ayında Lənkəran şəhərində "İslam Həmrəyliyinin təbliği və təşviqində medianın rolu" mövzusunda konfrans keçirib. Fonda bu mövzuda daha bir tədbiri yaxın aylarda Xaçmaz şəhərində keçirmək niyyətindədir.

**- Vüqar müəllim, ölkə jurnalistləri bu günlərdə böyük sevinc və həyəcan ovqatındadırlar. Gərgin seçim prosedurlarından sonra daha 255 nəfər jurnalistin mənzillə təmin olunması barədə qərar qəbul edildi. Bu prosesin yekunları barədə nə deyə bilərsiniz?**

- Əvvəla demək istərdim ki, jurnalistlər üçün dövlət büdcəsi hesabına yaşayış binasının inşa edilməsi dünyada analoqu olmayan addımdır və Azərbaycanda mediaya yüksək dövlət qayğısının mövcudluğunu bir daha təsdiqləyir. Xatırlatmaq istərdim ki, ölkə başçısı 2010-cu il iyulun 22-də jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış binasının inşasını nəzərdə tutan sərəncam imzaladı. Sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Səbail rayonu Bayıl qəsəbəsi, 20-ci sahə ərazisində 17 mərtəbəli, iki girişli, 156 mənzilli yaşayış binası inşa edilərək 2013-cü il iyulun 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə jurnalistlərə təhvil verildi. Ölkə başçısı elə həmin gün - 22 iyul 2013-cü il tarixdə "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" ikinci sərəncamı imzalamaqla jurnalistlərin bayram ovqatına əlavə sevinc qatdı.

Ardı Səh. 10

# "Dövlətimizin başçısı jurnalistlərin yaxın dostu və böyük himayədarı olduğunu növbəti dəfə təsdiqlədi"

Əvvəli-Səh-9

Sərəncama əsasən, Səbail rayonu Bayıl qəsəbəsi, 20-ci sahə ərazisində 17 mərtəbəli, 3 girişli, 255 mənzilli yaşayış binasının tikintisi tam başa çatdırılıb. İyulun 20-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iştirakı ilə həmin binanın təntənəli açılış mərasimi keçirildi, mənzillər yeni sahiblərinə hədiyyə olundu. Eyni zamanda həmin gün növbəti binanın da təməli qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iyunun 20-də inşası başa çatmış binanın açılışında iştirak etməsi, jurnalistlər qarşısında çıxış etməsi və üçüncü binanın təməlini qoyması mediaya dövlət dəstəyinin daha bir ali təzahürü kimi tarixiləşdi. Dövlətimizin başçısı jurnalistlər qarşısında dərin məzmunlu, əhatəli, proqram xarakterli çıxışında çox düzgün olaraq qeyd etdi ki, bu gün cəmiyyətdə xüsusi yeri və rolu olan KİV əməkdaşlarının heç də hamısının mənzil problemlərini həll etmək imkanları yoxdur. Azərbaycan dövləti bunu nəzərə alaraq fikir, söz və məlumat azadlıqlarının təminatı sahəsində yürütdüyü ardıcıl və sistemli dövlət siyasətinin tərkib hissəsi olaraq KİV əməkdaşlarının mənzillərlə təmin olunmasına dəstək verir. Möhtərəm Prezidentimiz jurnalistlərlə görüşü zamanı ölkəmizin dinamik inkişafında mediasızın qarşısında duran vəzifələrdən də söz açdı, onlara daim vətənpərvər olmağı, cəmiyyətdəki problemlərin işıqlandırılmasında obyektiv və prinsipial mövqe tutmağı, düşmənə qarşı informasiya cəbhəsində səyləri birləşdirməyi tövsiyə etdi.

Dövlətimizin başçısı jurnalistlərlə səmimi söhbətləşdi, onları mənzil almaları münasibətilə təbrik etdi, ən çox arzu və istəklərini çatdırdı. KİV əməkdaşları dövlətimizin başçısının şəxsində öz yaxın dostlarını, himayədarlarını, xeyirxahlarını, himayədarlarını gördülər, ürəkdən sevindilər, qürur duydular. İyunun 20-si tarixi yüzlərlə jurnalistin və onların ailələrinin taleyində unudulmaz bir gün oldu və onlara bu sonsuz xoşbəxtliyi, sevinci məhz möhtərəm cənab İlham Əliyev bəxş etdi.

Xüsusi vurğulamaq istəyirəm ki, bundan bir gün əvvəl - iyulun 19-da dövlətimizin başçısı yeni, sayca üçüncü binanın inşası və qəzetlərə birdəfəlik maliyyə yardımının göstərilməsi ilə bağlı sərəncamlar imzaladı. Fürsətdən istifadə edərək mətbuatın maddi-texniki bazasının və jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məsələlərinə son dərəcə obyektiv, həssas və qayğıkeş münasibətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və çoxsaylı jurnalistlərin adından bir daha dərin təşəkkürümü bildirirəm. Dövlətimizin başçısı jurnalistlərin yaxın dostu və böyük himayədarı olduğunu növbəti dəfə təsdiqlədi.

**- İyunun 20-də mənzil almış jurnalistlərin yekun siyahısı da açıqlandı. Mənzillərlə bağlı yaradılmış komissiyanın sədri kimi iddiaçı KİV əməkdaşlarının müəyyənləşdirilməsi prosesi barədə ətraflı məlumat verməyinizi istərdik...**

- İki aydan çoxdur ki, bu istiqamətdə gərgin, eyni zamanda sistemli və ardıcıl iş gedir. Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının tövsiyəsinə uyğun olaraq 15 may 2017-ci il tarixdə "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri"nin müəyyənləşdirilməsi, həmin qaydalar və şərtlər əsasında sənədlərin qəbulu prosesinin şəffaf və ədalətli şəkildə həyata keçirilməsi məqsədilə birgə komissiya yaradıldı. Birgə komissiyanın tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası və Azərbaycan Mətbuat Şurasından (hər qurumdan 3 nəfər) ümumilikdə 9 nəfər nümayəndə daxil edildi.

Komissiyanın 15 may 2017-ci il tarixli ilk iclasında "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri" müəyyənləşdirildi və Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırıldı. Komissiya sənədlərin 2017-ci il may ayının 22-dən iyun ayının 22-dək qəbul olunması barədə qərar qəbul etdi. 16 may 2017-ci il tarixdə komissiya sədrinin və üzvlərinin iştirakı ilə Beynəlxalq Mətbuat Mərkəzində KİV əməkdaşları üçün geniş mətbuat konfransı keçirildi. Həmin tədbirdə "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri", habelə sənədlərin qəbulu tarixi açıqlandı, media nümayəndələrini maraqlandıran suallar ətraflı cavablandırıldı.

Komissiya ilk gündən KİV redaksiyaları ilə iclasların vaxtını müəyyənləşdirmiş və öz nümayəndələrinin həmin iclaslarda iştirakını təmin etdi. Komissiyanın sədri və üzvləri sənədlərin qəbul edildiyi günlərdə 80 kütləvi informasiya vasitəsinin redaksiyasında keçirilmiş iclaslara qatıldılar, namizədlərin müəyyən edilmiş şərt və qaydalara uyğun müəyyənləşdirilməsi prosesini izlədilər.

Komissiya tərəfindən ümumilikdə 845 sənəd qeydiyyata alındı. Fonda qəzet redaksiyalarından 208, informasiya agentliyi, sayt və portallardan 89, telekanal və radiolardan 90, mətbuat xidmətlərindən 46, veteran jurnalistlərdən 19, fərdi qaydada 393 sənəd (ümumilikdə 845) sənəd təqdim olunub. Komissiya qəbul edilmiş sənədləri iyun ayının 22-dən 30-dək araşdıraraq müvafiq bölgü üzrə qruplaşdırdı, sistemləşdirdi və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etdi.

Onu da bildirim ki, Komissiyaya və Administrasiyaya ümumilikdə 2000 sənəd təqdim olunmuşdu və onlardan 1000-ə yaxını təkrarlanan müraciətlər idi. Eyni zamanda mətbuata bilavasitə aidiyyəti olmayan insanların da müraciətləri var idi. Qalan 1000 müraciət seleksiya olundu, 255 nəfər müəyyənləşdirildi. Siyahı son dərəcə obyektiv, şəffaf, dəqiqləşdirilmiş məlumatlar əsasında hazırlandı, seçim prosesi tamamilə ədalətli və obyektiv meyarlar əsasında aparıldı. Siyahı hərtərəflidir - istər elektron media, istər televiziyalar, radiolar, istər qəzetlər, portallar, saytlar hamısı əhatə olunub. Bu dəfə veteran jurnalistlərin, mətbuat xidmətlərinin əməkdaşlarının eləcə də dünyasını dəyişmiş bəzi jurnalistlərin ailə üzvlərinin də adları mənzil alacaq şəxslər siyahısına salınıb.

İyulun 19-da "Kütləvi informasiya vasitələrinin əməkdaşlarına mənzillərin verilməsi qaydaları və şərtləri"nin müəyyənləşdirilməsi, həmin qaydalar və şərtlər əsasında sənədlərin qəbulu prosesinin şəffaf və ədalətli şəkildə həyata keçirilməsi məqsədilə yaradılmış birgə komissiyanın yekun iclası keçirildi. İclasda şəxsi göstəriciləri komissiya tərəfindən elan olunmuş kriteriya və şərtlərə cavab verən KİV əməkdaşlarının müvafiq seçimlərdən sonra hazırlanmış yekun siyahısı müzakirə olundu. Komissiya üzvləri namizədlərin jurnalistika sahəsindəki xidmətlərini, ailə tərkibini, mənzilə olan ehtiyaclarını və haqqının çatmasını nəzərə alaraq mənzillərin bölgüsünü həyata keçirdilər. Bir daha bəyan edirəm ki, tərtib olunmuş siyahı son dərəcə obyektiv reallığı əks etdirir, ədalətlidir və hamı bunun şahidi olacaq.

Əlbəttə, çoxdu sayda jurnalist hesab edir ki, onun mənzil almağa haqqı çatır. Lakin nəzərə almaq lazımdır ki, bütün sənəd təqdim edənləri mənzillə təmin etmək mümkün deyil. Bu mənada, bəzən hətta layiqlilərin sırasından da ən layiqlilərini seçmək zərurəti yaranır. Komissiyanın sədri olaraq mən ev almayan jurnalistlərə qüssələnməməyi, təmkinli, səbirli davranmağı tövsiyə edirəm. Unutmaq lazım deyil ki, 2013-cü ildə ev almayan bir qrup jurnalist bu dəfə mənzillə təmin olundu, sevindi. Əsas məsələ budur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə bu proses davamlı xarakter alıb. İyulun 20-də üçüncü binanın təməli qoyuldu, ölkə başçısı həmin binanın qısa müddətdə inşa olunması üçün dövlətin lazımi dəstəyi verəcəyini bəyan etdi. Bu diqqət və qayğı gələcəkdə digər haqqı, xidməti, əməyi, ehtiyacı olan jurnalistlər üçün də yeni ümidlər, perspektivlər vəd edir.

Son olaraq bu günlərdə mənzil sevincini yaşayan bütün KİV əməkdaşlarını təbrik edirəm. Onlara bu xoşbəxtliyi, sevinci bəxş etmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bir daha dərin təşəkkürümü bildirir, ona cansağlığı, fəaliyyətində uğurlar arzulayıram. Möhtərəm Prezidentimizi çoxsaylı media nümayəndələri adından əmin edirəm ki, bu diqqət və qayğının müqabilində Azərbaycan jurnalistikası daha da gücələnəcək, peşəkarlığı, nüfuzu, məsuliyyəti yüksələcək. Mediamız daim dövlətinin və xalqının mənafelərinin qorunması naminə əzmlə çalışacaq, dövlətimizin başçısının yüksək etimadını, diqqət və qayğısını əməli fəaliyyətləri - peşəkarlıqları, obyektivlikləri, peşə etkasına, milli maraqlara sadiqlikləri ilə doğrultmağa çalışacaqlar.



## Fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri təsdiqlənib

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. İclası giriş sözü ilə açan Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələlər barədə məlumat verib.

**1.** Fondun 22 iyul Milli Mətbuat Günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsi və təsdiqi.

**2.** Cari məsələlər.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdə olan məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor Fondun 22 iyul Milli Mətbuat Günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqaməti əhatə etdiyini bildirib. Yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini deyən Vüqar Səfərli ümumilikdə 111 nəfər jurnalistin mükafatlandırılacağını diqqətə çatdırıb. Müsabiqənin şərtlərinə əsasən, I yerin qalibləri üçün 500, II yerin qalibləri üçün 400, III yerin qalibləri üçün 300 manat mükafat nəzərdə tutulub. Sonra müsabiqənin ekspertlər tərəfindən müəyyənləşdirilmiş yekun nəticələri Müşahidə Şurası üzvlərinin müzakirəsinə təqdim edilib. Şura üzvlərindən Bəhruz Quliyev, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Əvəz Rüstəmov və Rasim Həsənov keçirilmiş müsabiqənin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkiblər. Daha sonra müsabiqənin yekun nəticələri səsə qoyularaq yekdilliklə təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.

## SHXÇDX-də Milli mətbuatın 142-ci ildönümü qeyd olunub



Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində Azərbaycan milli mətbuatının 142-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə çıxış edən Xidmət rəisinin birinci müavini, general-mayor Zaur Abdullayev media nümayəndələrini təbrik edərək, milli mətbuatın keçdiyi inkişaf mərhələlərindən danışıb. Zaur Abdullayev bildirib ki, "Əkinçi" qəzetinin nəşri ilə bünövrəsi qoyulan mətbuat bu gün cəmiyyətimizi bütün sahələrdə informasiya ilə təmin etməyə nail olub. Xidmət rəisinin birinci müavini Ümummilli Lider Heydər Əliyev tərəfindən senzuranın ləğv edilməsi ilə müstəqil mətbuatın inkişafında yeni mərhələnin başlandığını qeyd edib: "Bu gün də mətbuata dəstək cənab Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Jurnalistlərin sosial problemlərinin həlli istiqamətində mütəmadi olaraq mühüm əhəmiyyətə malik layihələr həyata keçirilir".

Zaur Abdullayev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə mətbuat orqanları arasında daimi əməkdaşlıq münasibətlərinin formalaşdığını vurğulayıb. Tədbirin sonunda Xidmətlə yaxından əməkdaşlıq edən jurnalistlərə "Hərbi vətənpərvərliyin təbliğində xidmətlərinə görə" diplom və qiymətli hədiyyələr təqdim olunub.

***Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biri olan "Əkinçi" qəzetinin 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində ilk sayı nəşr edildi və bununla da, milli mətbuatımızın əsası qoyuldu. Bu, elə bir dövr idi ki, zamanla məqsəd-məslək arasında bir uçurum, ziddiyyət mövcud idi. Milli ruhda, milli dildə qəzet çıxarmaq üçün hökumətdən icazə almaq çox çətin bir proses idi. Bu reallıqları nəzərə alan dövrün maarifpərvər ziyalısı Həsən bəy Zərdabi gedəcəyi yolun çətinliyini yaxşı dərk edirdi: "Bəs qəzeti necə çıxardım? Pul yox, yazıçı yoldaş yox, çapxana yox, hürufat yox, bir-iki yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır".***



# Milli mətbuatımızın 142 illik tarixi yolu

Azərbaycanın o zamankı tarixi inkişaf səviyyəsində ən təsirli, ən münasib vasitələrdən biri mətbu söz olduğunu dərk edən Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin nəşrinin əhəmiyyətini çox aydın dərk etdiyindən, hər bir əzaba qatlaşdı və zəhməti bəhrə verdi. "Əkinçi"nin cəmi 56 sayı işıq üzü görsə də, böyük bir missiyanın daşıyıcısı oldu. Qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın ictimai-mədəni həyatında böyük ad qoydu və səhifələrində milli oyanışın xüsusiyyətlərini, milli birliyi yaratmaq məsələsini önə çəkdi. "...zəmanə dəyişilib. İndi güc və igidlik əyyamı deyil, elm əyyamıdır", - deyərək, milləti elmin qapılarını açmağa çağırdı. Azərbaycan xalqının maariflənməsi, elmə və təhsilə yiyələnməsi Həsən bəy Zərdabini daim narahat etdiyindən, o, bu məsələyə geniş dairədən yanaşaraq, müqayisələr aparır və oxucuların bu haqda təfsilatı ilə məlumatlandırırdı. "Əkinçi"dən sonra, bu təcrübədən yararlanan maarifpərvər ziyalılarımız bir-birinin ardınca yeni mətbuat orqanlarının əsasını qoyublar. Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuş və bu gün də belədir. Bu ənənə yaşayır və davam etdirilir.





Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Ulu Öndər Heydər Əliyevin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

**"JURNALİSTİKA İLƏ MƏŞĞUL OLAN İNSAN ÜÇÜN MƏNZİL ALMAQ O QƏDƏR DƏ ASAN MƏSƏLƏ DEYİL VƏ DÖVLƏT BURADA HƏMİŞƏ SİZİN YANINIZDADIR"**

Jurnalistlərin mənzil-məişət probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz nümunəsidir. Son illərdə isə jurnalistlərin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra edilib. Belə ki, 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna, ilkin olaraq, 5 milyon manat vəsait ayrıldı. Ötən müddətdə həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olunaraq, media nümayəndələrinə verildi. Bu günlərdə isə Azərbaycan Prezidentinin məlum Sərəncamına əsasən, inşa edilən 255 mənzil jurnalistlərə verildi. Ölkə başçısı ölkədə fəaliyyət göstərən kütləvi informasiya vasitələri əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün növbəti yaşayış evinin tikintisi ilə bağlı 19 iyul 2017-ci il tarixdə daha bir Sərəncam imzaladı.

Azərbaycan dünyada bəlkə də yeganə ölkədir ki, kütləvi informasiya vasitələri nümayəndələri üçün dövlət tərəfindən pulsuz olaraq yaşayış binaları inşa olunur və onlara verilir. Bu, bir daha sübut edir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həllinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binanın açılış mərasimində çıxışı zamanı vurğulayıb ki, Prezident kimi mən azad medianın inkişafı üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm: "Jurnalistlərin məişət problemlərinin həlli üçün də bundan sonra da biz öz addımlarımızı atacağıq. Çünki mən yaxşı başa düşürəm ki, jurnalist biznesmen, iş adamı deyil. Jurnalistika ilə məşğul olan insan üçün mənzil almaq o qədər də asan məsələ deyil və dövlət burada həmişə sizin yanınızdadır. Azərbaycan dövləti güclü dövlətdir, sosial dövlətdir".

Göründüyü kimi, Azərbaycan dövləti azad söz və azad mətbuat problemlərini tam mənada həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Bu gün artıq mətbuatımızın 142-ci ildönümü qeyd edilir. Böyük bir tarixi yol keçən milli mətbuatımızın xalqımızın həyatında çox böyük rolu var. Mətbuat demokratik prinsiplərin əhatə olunmasında ən başlıca vasitədir. Ona görə də, hansı cəmiyyət özünü demokratik görmək istəyirsə, demokratik dəyərlərə yiyələnmək istəyirsə, mətbuatın inkişafına diqqət yetirməlidir. Məhz bu baxımdan da, bu gün ölkəmizdə mətbuata, söz azadlığına böyük diqqət və qayğı göstərilir.

Prezident İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və ona həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin nəticəsidir. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Cənab Prezident qeyd edib ki, biz bu gün internet dövründə yaşayırıq: "Hansısa hər bir yalan, böhtan, təxribat xarakterli məlumat dərhal özünə yer tapır. Ancaq milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 iyul 2017-ci il

# Binəqədi rayonunda “Binəqədi Bələdiyyələri hesabat verir” adlı tədbir keçirilib



Binəqədi rayonunda 22 İyul Milli Mətbuat Günü münasibəti ilə “Binəqədi Bələdiyyələri hesabat verir” adlı tədbir keçirilib. Tədbirdə ilk öncə milli mətbuatımızın tarixinə nəzər salan aparıcı 142 illik bir dövrün Azərbaycanın ictimai-mədəni həyatında rolunu diqqətə çatdırıb.

Daha sonra Binəqədi bələdiyyələri hesabat xarakterli çıxışlarını təqdim ediblər. Belə ki, M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov “Bələdiyyələrdə vergi ödəyiciləri ilə aparılan işin vəziyyəti: nailiyyətlər və problemlər”, Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarlı “Seçici məmnunluğu bələdiyyələrin fəaliyyətinin prioritet sahəsi kimi”, Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva “Bələdiyyələrin beynəlxalq əlaqələri”, eləcə də, “Bir bələdiyyə-bir layihə”si çərçivəsində Binəqədi bələdiyyələrində görülən işlər barədə Biləcəri Bələdiyyəsinin sədri Hikmət Quliyev geniş məlumat verib.

Tədbirdə çıxış edənlər AzTV-nin əməkdaşı Firuzə Nadir və Belediyye.info saytının redaktoru Vüqar Tofiqli bildiriblər ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi, bu gün ölkədə azad, demokratik və güclü mətbuat vardır. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra çıxış edənlər Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva, millət vəkili, Mətbuat Şurasının sədri Əflatun Amaşov, millət vəkili Tahir Rzayev 22 İyul Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini təbrik ediblər. Natiqlər vurğulayıblar ki, ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir.

Sonda Milli Mətbuat Günü ilə bağlı bir neçə media nümayəndələri və televiziya əməkdaşları Fəxri fərmanla təltif edilib. Tədbirin bədii hissəsi konsert proqramı ilə davam etdirilib.

**ZÜMRÜD**

# Yeni Azərbaycan Partiyası - qələbə və zəfərlərə doğru addımlayan qüdrətli siyasi təşkilatdır

## *YAP Tərtər rayon təşkilatı yaradılmasının 24-cü ildönümünü qeyd etdi*




Dünən Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının yaradılmasının 24-cü ildönümü ilə əlaqədar təşkilatın şura üzvləri, gənclər birliyi, qadınlar şurası, nəzarət-təftiş qrupunun üzvləri, ərazi ilk partiya təşkilatı sədrləri və yerli mətbuatın nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Öncə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayonun mərkəzi meydanında ucaldılmış abidəsi önünə



gül-çiçək dəstələri qoyaraq, Onun xatirəsini ehtiramla anıblar. Tədbiri giriş sözü ilə açan YAP rayon təşkilatının sədri Ramiz Şabanovun təklifi ilə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və dünyadan köçmüş partiya üzvlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə məruzə ilə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov qeyd edib ki, tarixi zərurətdən doğan və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yaradılan Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən dövlətçilik, azərbaycançılıq, vətənçilik kimi ülvi prinsiplərə söykənərək, artıq 24 ildir ki, iqtidar partiyası kimi fəaliyyətdədir: “Ümummilli Lider Heydər Əliyev ideyaları ilə silahlanmış Yeni Azərbaycan Partiyası həmişə və bu gün də möhtərəm Prezident, partiyamızın Sədri Cənab İlham Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasəti uğurla həyata keçirir, doğma Azərbaycanımızın dünya dövlətləri içərisində tutduğu layiqli mövqeyinin möhkəmləndirilməsi yolunda yorulmaz fəaliyyətdədir”.

Ramiz Şabanov tədbir iştirakçılarını və onların şəxsində rayon təşkilatının sıralarında olan bütün siyasi həmfikirləri rayon təşkilatının yaradılmasının 24-cü ildönümü münasibətilə bir daha təbrik edib, hər bir partiya üzvünə uğurlar arzulayıb.

Digər çıxış edənlər - Təhsil Şöbəsi ərazi ilk partiya təşkilatının sədri İntiqam Nuruyev, şura üzvü Azər Ağayev, Qapanlı ərazi ilk partiya təşkilatının sədri Rizvan Əzimov, şura üzvləri Xeyri Həcər, Gülarə Əhmədova və Fitat Əliyeva qeyd etdilər ki, Ümummilli Lider dünənin, bü günün və gələcəyin partiyası adlandırdığı Yeni Azərbaycan Partiyası və onun yerli təşkilatları partiyanın proqram prinsiplərinə sadiq qalaraq, daim Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycan xalqının sosial rifah halının daha da yaxşılaşdırılması üçün, ölkəmizin sürətli inkişafının daimiliyini təmin etmək yolunda müəyyənləşdirdiyi siyasi xəttə sadiqlik nümayiş etdirir.

Tədbirin sonunda YAP sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim olundu.

**Rövşən RƏSULOV**

# Cocuq Mərcanlı kəndi telefon və internetlə təmin olunub





Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi telekommunikasiya xidmətləri ilə təmin olunub. AZƏRTAC xəbər verir ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri Cocuq Mərcanlıda Şahəddin Hüseynovun evində olub, ailəyə telefon aparatı, modem, noutbuk hədiyyə ediblər. Ailə telefon və internet abunə haqqından azad edilib. Məlumat verilib ki, “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən kəndə 10 kilometr məsafədən optik kabel çəkilib, 64 nömrə tutumlu elektron Avtomat Telefon Stansiyası (ATS), kənd daxilində telefon kabellərin yeraltı çəkilişi üçün kabel-kanalizasiya qurğuları quraşdırılıb, 1200 metrədək məsafədə daxili şəbəkə qurulub. Cocuq Mərcanlıda inşa edilən 50 yeni evin hamısı, həmçinin məktəb telefonlaşdırılıb, internetlə təmin edilib. “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Suat Paşayev jurnalistlərə müsahibəsində bildirib ki, Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq yenidən qurulan Cocuq Mərcanlıda əhalinin dayanıqlı və fasiləsiz rabitə xidməti ilə təmin olunması işləri yekunlaşıb. Burada ən son texnologiyalardan istifadə olunub. Hələlik 50 ailə üçün nəzərdə tutulmuş ATS-in tutumu gələcəkdə tikiləcək evlərin sayına uyğun olaraq artırılacaq.

# Ukrayna mətbuatı: Sarkisyan Ermənistanı Şimali Koreyanın aqibətinə sürükləyir

Ukraynalı jurnalist Oleq Melniçenko yerli mətbuatda Ermənistan rəhbərliyinin vandal siyasətini pisləyən “Sarkisyan Ermənistanı Şimali Koreyanın aqibətinə sürükləyir” başlıqlı yazı ilə çıxış edib. AZƏRTAC xəbər verir ki, www.asn.in.ua informasiya portalında dərc olunan müəllif yazısında Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycanın mülki şəxslərinin - iki yaşlı Zəhranın və onun nənəsinin öldürülməsini kəskin şəkildə qınayıb. “Mülki şəxslərə qarşı əməliyyata Yerevanda kimin rəhbərlik etdiyini təsəvvür etmək çətindir. Bəlkə Sarkisyan 63 illiyi ilə bağlı atəşfəşanlıq arzusuna düşüb və bu əməliyyatı həyata keçirib. Yaxud əyyaş, sərxoş komandirləri silahsız insanları atəşə tutub. Görünür, Ermənistan hakimiyyəti bu cinayətə izahat verməyə tələsmir və ya buna heç hazırlaşmır da”, - deyə müəllif Melniçenko vurğulayır. Yazıda daha sonra qeyd olunur: “Əgər Sarkisyanın Dağlıq Qarabağ münaqişəsində komandir olmasından tutmuş, prezidentlik dövrünə qədər hadisələrin xronologiyasına nəzər salsaq, görərik ki, onun iştirakı, əmri ilə minlərlə uşaq və qadın ölüb”.

G20 ölkələri liderlərinin sammitində bu hadisələrə biganə yanaşılmasının təəccüb doğurduğunu bildirən müəllifin fikrincə, BMT Alxanlı kəndində törədilən terror aktını müzakirəyə çıxarmağa borcludur. “Sarkisyan həm körpə Zəhranın qətli, həm də digər oxşar hərəkətlərlə Bakı və bir çox Avrasiya ölkələri ilə münasibətlərdə elə bir mövqe tutub ki, geriyə yolu qalmayıb. Bu səbəbdən də həmin ölkələr tərəfindən ən yaxın gələcəkdə təcili sanksiya reaksiyası gözlənilndir. Ermənistanın dünyadan təcrid olunmuş Şimali Koreyanın aqibətini yaşayacağını, Sarkisyanın başına isə Kim Cen Inın tacının qoyulacağını yalnız zaman göstərəcək”, - deyə müəllif yazısında qeyd edir.

# Əxlaqsızların qarşıdurma məkanı

## *Əli Kərimli partiya sədri kimi deyil, məhz priton işlədən kimi tanınmalıdır!*



Kimsəyə sirr deyil ki, Əli Kərimlinin sədri olduğu AXCP, məhz onun sayəsində əxlaqsızılıq, söyüşmə və təhqir məkanına çevrilib. O cümlədən, qruplararası qarşıdurmalardan da payını alan söyüş amili nəticə etibarilə ictimaiyyətə məlum hadisələrlə yekunlaşır. Onu da qeyd etmək yerinə düşərdi ki, əxlaqsızlıq maşınının sükanı da, məhz sədr Ə.Kərimlinin əlindədir. Onun siyasətini bəyənməyənlərə qarşı total söyüş kampaniyalarını başladan AXCP sədri nədənsə, məhz bu vasitə ilə partiyadaxili opponentlərini susduracağını zənn edir. Partiyadakı "missiyalarını" başa vurmuş Əbülfəz Qurbanlı, Razi Nurullayev və digər cəbhəçilər də eyni halla üzləməli olublar. Növbədə Ə.Kərimlinin həbsdə olan müavini Fuad Qəhrəmanlının, bəlkə də digər müavini Gözəl Bayramlının da olması şübhəsizdir. Onun yaxın zamanlarda partiya sıralarından istefaya gedəcəyini istisna etmək olmaz. Yəni sabah vaxtilə Ə.Kərimlinin "sağ əlləri" hesab edilən F.Qəhrəmanlıya və G.Bayramlıya qarşı da eyni kampaniya başladılsa, buna heç də təəccüblənməyə dəyməz.

### AXCP-də iki qadının bir kişi üstündə savaş tarixi

Onu da qeyd edək ki, partiyanın əxlaqsızılıq sindromu yalnız siyasi müstəvidə deyil, şəxsi zəmində baş verməkdədir. Məsələn, bir müddət əvvəl, AXCP-də iki qadının sevgi savaşı uğrunda apardıqları savaş belə qənaətə gəlməyə əsas verir. Mövzu isə belədir ki, bir-birilərini ittiham edən bu qadınların özləri ən sərt ifadələrdən istifadə etməkdən çəkinməyib, hər biri digərinə olmazın aşağılayıcı ifadələr yağdırıblar. Hətta "qadınların döyüşü" adı verilən bu səhnə düşərgədə ironiya baxışına çevrilib. Belə ki, bir müddət öncə, feysbukda bir qrup üçün ciddi müzakirə obyekti olan, digərlərində isə ikrah hissi doğuran bu mövzu ondan başladı ki, cəbhəçi xanımlardan biri - Gülnarə Akifqızı partiya yoldaşı haqda ittiham dolu status paylaşdı. Bunları yazmaqda məqsədim odur ki, həmişə sadiqlikdən, qeyrətdən dəm vurur, ərini sevməyindən yazırdın. Sənin iç üzünü hamıya göstərəcəyəm. Hətta ərinə də. Bax, o da biləcək hər şeyi! Özümü sənə tanıdacağam!"

Məhz bundan sonra qızğın müzakirələr başlayır, statusun altında müxtəlif "ağılqoyan" rəylər, şərhlər yazılır. Cəbhəçi G.Akifqızı digər cəbhəçi Ü.Kazımovaya hədə dolu mesajlar yazmaqdan yenə də çəkinmir, hətta onu məhv edəcəyi ilə hədələyir. Bu söz-söhbətlərin ortasında demək olar ki, mövzunun kulminasiya nöqtəsi olan rəy yazılır və ortaya daha bir cəbhəçi çıxır - Gülnar Cahandar. O özündən fərqlənməyən cəbhəçi rəfiqələrinə məsləhət görür ki, söhbətlərini mitinqdən (həmin ərəfələrdə AXCP və "Milli Şura"nın mitinqi planlaşdırılmışdı-R.N.) sonraya saxlasınlar.

### AXCP rəhbərliyinin şəxsi münasibətləri

Nəticədə, bu fakt, belə qənaətə gəlməyə əsas verir ki, AXCP-də insani dəyərlər, ümumiyyətlə yoxdur. Partiya rəhbərliyini və funksionerləri üzvlərin yaşayış səviyyəsi, problemləri və başqa məsələlər maraqlandırmır. Onlar yalnız özlərini düşünür, varlıqlarının təsdiq vasitəsi hesab etdikləri mitinqlə maraqlanırlar. Mitinqdən öncə belə bir mövzunun açılmasını isə heç istəmirlər. Çünki artıq neçə illərdir ki, partiyada əxlaq anlayışının qalmadığı sübut olunub və buna bənzər məsələlər dəfələrlə onların iç üzünü açıb töküb.

### Gedərkən, daha bir təhqir: "Tüpürüm sizin partiyanıza!"

Bu da son deyil. Məsələn, məlum təhqir və tənqidlərdən sonra AXCP üzvləri ittiham olunan Ü.Kazımovaya təzyiq göstərməyə başlayıblar və ondan bu partiyanın üzvü olmadığı haqda açıqlama yaymasını tələb ediblər. Bununla da AXCP Nəsimi rayon şöbəsinin üzvü olan sözügedən xanım belə təzyiq və təhqirlərə dözməyərək, partiyadan istefa verib və Gülnarə Akifqızının onu şantaj etdiyini bildirib: "Son bir neçə gündür Gülnarə Akifqızının mənə qarşı etdiklərinə görə çox insanlardan iradlar aldım. AXCP-nin rəsmi olaraq Nəsimi şöbəsinin üzvü olsam da, iradların hamısını öz əqidədaşlarımdan - cəbhəçilərdən aldım".

Göründüyü kimi, AXCP-yə və Ə.Kərimliyə tüpürüb, partiyadan çıxanlar bir deyil, iki deyil, onların sayı onlarladır. Bu isə, kifayət qədər sübut edir ki, əxlaqsızlıq yuvasına çevrilmiş bir siyasi təşkilatın ölkədə hər hansı bir məsələyə öz təbirincə münasibət bildirməsi yolverilməzdir. Ən azından, buna münasibət bildirənin ilk növbədə əxlaq kodeksi araşdırılmalıdır ki, onun söz deməyə haqqı var, ya yox...

***Rövşən NURƏDDİNOĞLU***

# Bu gün də havanın hərarəti yüksək olacaq

Ölkə ərazisində iyulun 22-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 22-25°, gündüz 36-40°, bəzi yerlərdə 40° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında havanın yağmursuz keçəcəyi ehtimal edilir. Şərq küləyi əsəcək. Hava yağmursuz olacaq, mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 27-32° isti olacağı gözlənilir.



Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 31-36° isti, dağlarda gecə 13-18, gündüz 25-30° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 33-38° isti, dağlarda gecə 16-21°, gündüz 27-32° isti olacağı gözlənilir.



# MİLÇƏK İYRƏNC DEYİL...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Atalar sözü var, deyir milçək iyrənc deyil, amma könül bulandırır. İndi də təəssüflər olsun ki, bizlər bənzər halı yaşamaqdayıq. Hadisələri, olayları doğru, sağlam düşüncə və ağıllı başla qiymətləndirməyi bacaran insanlar, xüsusilə, çoxsaylı jurnalist camεəsinin üzvləri ən gözəl təbriklərini, arzu və diləklərini ev sahibi olmuş həmkarlarına göndərdikləri halda, ümumiyyətlə, jurnalist olmayan kəslər, ya da təsadüfi "jurnalistlər", yuyulmamış qaşıq kimi, düşüblər ortaya və "ağzıgöyçəkliklər" vasitəsiylə gündəmdə qalmağa çalışırlar. Bəlkə də, arayıb-axtarsaq haqqın, ədalətin və doğruluğun nə olduğunu təməlli olaraq bilməyənlər, ictimai həyatda dəfələrlə haqsızlıqlara yol verən həmin "adamlar" "haqdan", "nahaqdan" danışaraq, sadəcə, könülləri bulandırmaqla məşğul olurlar. Sadəcə, ayıbdır..!

Ayıbdır ona görə ki, bu gün uzun illərdir ki, mənzil sahibi olmaq arzusu ilə yaşayan, necə deyərlər, dağı-daşı külüng yerinə qələmlə yaran jurnalistlər, məhz həmin nanəcib "adamlar" tərəfindən müxtəlif üsullarla hədəfə alınırlar.

Keçən dəfə sosial şəbəkədə yerləşən səhifələrin birində utanc verən, jurnalistləri məsxərəyə qoyan karikaturanı gördükdən sonra, ümumiyyətlə, bunu yayanların insan olmadıqları, yaxud da insanabənzər ikiayaqlı varlıq olmaları barədə öz-özümə mülahizə yürütdüm. Sadəcə, bir həqiqəti dərk etmək lazımdır ki, o mənzillərdə yalnız uzun illər boyu media sahəsində çalışan insanlar deyil, onların ailələri, əyalları da yaşayacaq. Edilən hər bir məsxərə, işlədilən hər bir təhqirli fikir onlara da aid olur. Məncə, belə hallara yol verən "insanlar" məsuliyyətə cəlb olunmalı, yeri gəldikdə isə, müvafiq qurumlar qarşısında cavab verməlidirlər. Belələri unutmamalıdırlar ki, "haqq" tələb edərkən, başqalarının haqlarına girirlər!

Düzdür, bəzi jurnalistlər bu dəfə mənzil sahibləri siyahısında yer almadılar, ancaq onların artıq təməli qoyulmuş və 3 il sonra təhvil veriləcək 3-cü jurnalistlər binasında yeni mənzilləri olacaq, inanın ki, bu, belə də olacaq. Çünki dövlətimizin bunun üçün kifayət qədər imkanları var, hətta bu ənənənin davamlı olacaq, reallaşdırılmasına da gərək kimsənin şübhəsi olmasın!

Baxın, birinci binanın təhvil verildiyi vaxt siyahıdan kənarda qalan media təmsilçilərinin əksər çoxluğu ikinci binada yeni mənzillərə sahib oldular. Hətta həyatdan köçmüş həmkarlarımızın ailələrinə belə mənzillər verildi! Maraqlıdır, nəyə görə "ağzıgöyçəklik" edənlər təkcə bu humanizm prinsipləri barədə danışmırlar, təbliğatını aparmırlar, təqdir etmirlər, amma mövzuya özlərinə yalnız sərf edən məcrada yanlış, əsassız yanaşmalar edib, ürəkləri bulandırmaqla məşğul olurlar?! Bu gün belələrindən birinə sözügedən halı qiymətləndirməsi istənilsə belə, onlar bir "nırx" tapıb, nala-mıxa döyəcləməyə başlayacaqlar. Ona görə ki, belələri humanizmin, insanlığın, ləyaqət və şərəfin nə olduğunu qətiyyən anlamırlar, anlasalar belə, boğazdan yuxarı anlayırlar. Bunun isə nə cəmiyyətə, nə də ictimai rəyə heç bir səmərəsi yoxdur.

Gəlin, əyri oturub-düz danışaq - bir var uzun illər bir mediada çalışıb zəhmət çəkəsən, biri də var gah birində, gah da digərində özünə yer tapmayıb, axırda iki-üç ilə saytdan-filandan açasan, sonra da deyəsən ki, "mənim mənzil almağa tam olaraq haqqım var!"

Yaxud digər amilə nəzər salaq. Bir var jurnalistin çalışdığı redaksiyanın rəhbəri onun haqqında istənilən məsələ üzrə təqdimat hazırlasın, biri də var ki, jurnalistin özü özü barədə təqdimat hazırlayıb hansısa quruma təqdim etsin. Sadəcə, fərqə baxarsaq, haqlı nəticə çıxararsaq, nəyin necə olduğunu bir daha qiymətləndirə bilərik. Hər halda, redaksiya rəhbərinin, redaksiya heyətinin dəstəklədiyi sənəd daha etibarlı sayılmalıdır. Çünki burada haqlı mövqe mövcuddur.

Könül bulandırmaqla məşğul olan "milçəklər" isə ölkə rəhbərliyinin bu siyasətinə, sadəcə, kölgə salmağa cəhdlər edir, bununla da, ciddi nöqsanlara yol verirlər. Ağıllı insan isə qarşısında olan yolunu bağlamamalı, gələcəyini düşünməli, bu yolda yeni cığırlar açmalıdır. Etmirsə, demək ki, günah da həmin fərdin üzərinə düşür. Həyatın doğru düstur realliğı da məhz budur....

TƏRS BAXIŞ

# Arif Hacılının başqanlığı formal xarakter daşısa da...

## O, İsa Qəmbərə verdiyi vədinə xilaf çıxdı



***Müsavat partiyasında növbəti narazılıqlara start verilib. Bu barədə "SƏS"ə partiya daxilindəki etibarlı mənbə bildirib. Belə ki, Müsavatı bir neçə il öncə saxtakarlıq yolu ilə ələ keçirmiş Arif Hacılı və onun ətrafı 2018-ci ildə keçiriləcək prezident seçkilərində kimsəyə güzəştə getməyəcəklərini sərgiləməyə başlayıblar. Halbuki A.Hacılının Müsavata başqan gətirilməsində, bilavasitə sabiq başqan İsa Qəmbərin rolu olmuşdu. Hətta qurultay zamanı o bəyan etmişdi ki, kim ona etimad göstərirsə, A.Hacılıya da səs versin. Təbii ki, bu, elə-belə verilən qərar deyildi. Yəni Müsavatın seçki siyahısının hazırlanması İ.Qəmbərin diktəsi ilə həyata keçirilib, Arif Hacılının başqanlığı isə, sadəcə, formal xarakter daşıyır. Daha dəqiq desək, həmin vaxt tərəflər arasında belə bir razılaşma əldə edilmişdi ki, A.Hacılı Müsavatın başqanı seçiləcəyi halda, İ.Qəmbər 2018-ci ilin prezident seçkilərində "Milli-Strateji Düşüncə Mərkəzi"nin sədr olaraq, Müsavatdan namizəd kimi irəli sürüləcək.***

### Ya qəmbərçilər, ya da Hacılı klanı...

İndi-indi aydın olmağa başlayıb ki, A.Hacılı İ.Qəmbər qarşısında götürdüyü öhdəliyi yerinə yetirmək fikrində deyil və 2018-ci ildə öz namizədliyini irəli sürəcək. Məhz bundan sonra Müsavatdaxili qruplaşmalarda fikir ayrılıqları pik həddə çatıb, hətta A.Hacılı klanı xəyanətkarlıqda və satqınçılıqda günahlandırılıb.

Partiyada bu gün də mövcud olan qəmbərçilər rəhbərliyə qarşı etirazlarını davam etdirərək bildirirlər ki, belə davam edərsə, A.Hacılı 2018-ci ildə İ.Qəmbərin yerinə namizədliyini irəli sürərsə, ya onun özünün istefası tələb olunacaq, ya da qəmbərçilər istefa verəcəklər. Belə ki, Arif Hacılının başqanlığı formal xarakter daşısa da, İ.Qəmbərə verdiyi vədinə xilaf çıxıb.

### Sabiq müsavatçılar da anti-Hacılı qiyamına dəstək verəcəklər?

Mənbə onu da bildirir ki, bu məsələ gündəmə çıxarsa, sabiq müsavatçılar da İ.Qəmbərə dəstək verəcəklər, çünki onların bir çoxu İ.Qəmbərdən artıq, A.Hacılıdan yanıqlıdırlar. Deyilənə görə, bu gün ADR adlı hərəkatda təmsil olunan Səxavət Əlisoy, hərəkatın sədri Qubad İbadoğlu, Müsavatın sabiq başqan müavini Vurğun Əyyub, eləcə də, "Ağ Partiya"nın sədri, sabiq müsavatçı funksioner Tural Abbaslı və tərəfdarları da Müsavatda qiyamın qalxacağı halda, A.Hacılıya qarşı kampaniyaya başlayacaqları barədə razılığa gəliblər.

### Sözügedən vəziyyət Müsavatın hazırkı rəhbərliyinə və partiyanın gələcəyinə yaxşı heç nə vəd etməyən danılmaz faktordur

Ancaq təbii ki, burada şəxsi müstəvidə olan düşmənçilik hisslərinin də rolu az deyil. Belə ki, normalda düşünsək ki, əgər tərəflər arasında bir neçə il öncə müəyyən razılıqlar əldə olunubsa, bu razılığa əməl etmək lazımdır. Amma indiki vəziyyət birbaşa sırf qərəzin nəticəsidir. Həmçinin, sözügedən vəziyyət Müsavatın hazırkı rəhbərliyinə və partiyanın gələcəyinə yaxşı heç nə vəd etməyən danılmaz faktordur. Çünki seçkilərdən sonra bu təşkilatda qalmaq istəməyənlərin növbəti istefaları baş verəcək və bu istefa seriyasının davam edəcəyini də indidən ehtimal etmək mümkündür.

**Rövşən NURƏDDİNOĞLU**

# Təhmasib Novruzov: "Əli Kərimli və İsa Qəmbər köhnə qurdlardır"



Müxalifətdaxili intriqalar fonunda diqqətçəkən maraqlı məqamlardan biri də partiya sədrlərinin bir-birinə qarşı yeni iddialarla çıxış etmələrdir. Bu faktlara əsasən, demək olar ki, 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə qədər bəzi partiyalar fəaliyyətlərini dayandırmağa məcbur olacaqlar. Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, 2018-ci ildə keçiriləcək prezident seçkiləri öncəsi radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin xaricdə olan havadarları tərəfindən maliyyə yardımları alması və maliyyələşməsi gözlənilən haldır: "Çünki bu müxalif qüvvələr hər dəfə ölkədə nə isə bir seçki keçirilən kimi xarici qüvvələr tərəfindən maliyyələşir və onların tapşırıqlarını yerinə yetirir. Yəni müxalif qüvvələr bu yardımın qarşılığında ölkədə nə isə xoşagəlməz vəziyyət yaratmaq istəyirlər. Amma onların nə istəmələrindən asılı olmayaraq, bu qüvvələrin heç bir planı baş tutmur. Ümumiyyətlə, müxalifət təmsilçiləri bu günə qədər ölkədə keçirilən heç bir seçkidə heç bir uğur qazanmayıb və bundan sonra qazanmayacaq da. Demək olar ki, hər zaman olduğu kimi, bu dəfə də müxalifət özünə xaricdən dəstək axtarmaqla məşğul olur. Müxalifət təmsilçiləri ümidlər yaşayıb, xəyal edirlər ki, xaricdə olan havadarları bunları vəzifəyə gətirəcəklər. Bu xəyalların reallaşmasının nəticəsi də göz qabağındadır. Yaxşı olardı ki, bu müxalifətçilər reallığa çevrilməyəcək xəyallarla yaşamaqdan əl çəksinlər. Çünki bu xəyallar heç vaxt real olmayıb və olmayacaqdır. Eyni zamanda, bu qüvvələrin daxildə də heç bir gücü yoxdur. Yəni xalqın da müxalifətə hər hansı bir dəstəyi yoxdur". Təşkilat sədrinin sözlərinə görə, hər seçkilərdə müxalifəti böyük uğursuzluq gözləyir. Bir sözlə, uğursuzluq müxalifətin alın yazısıdır.

**GÜLYANƏ**

# Satqın müxalifət ifşa olunur

## *Müxalifətin seçkilərə hazırlıqla bağlı "SOROS" və "Freedom House" təşkilatından 1 milyon 280 min dollar aldığı bildirilir*



***Bu, bir faktdır ki, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq, təkmil struktur elementlərinə malik olan və möhkəm əsaslara söykənən siyasi sistemin sabitliyini sarsıtmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da dağıdıcı müxalifətin çirkin, yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Xarici qüvvələrin sifarişlərini yerinə yetirmək üçün canfəşanlıq edən ünsürlər bəd əməlləri ilə xalqdan çox aralı düşdüklərini göstərirlər.***

Bu fəaliyyət yolunu daha çox Müsavat və AXCP rəhbərliyinin tutduğu müşahidə olunur. Yəni Əli Kərimli, İsa Qəmbər və Arif Hacılı maliyyə yardımı əldə etmək üçün xarici maraqlı qüvvələrin əlaltıları rolunda çıxış edirlər. Məlumata görə, dağıdıcı ünsürlər 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hazırlıqla bağlı "SOROS" və "Freedom Hous" təşkilatından 1 milyon 280 min dollar alıblar. Tərəflər arasında əldə olunan razılaşmaya görə, əməkdaşlıq münasibətləri sentyabr ayından sonra bir qədər də genişlənəcək. Əməkdaşlığın hansı səviyyədə olacağı isə Müsavat başqanı A.Hacılının Avropaya sentyabr ayında nəzərdə tutulan səfəri zamanı müzakirə olunaraq dəqiqləşəcək. "Azadlıq" partiyasının sədri Əhməd Orucun sözlərinə görə, müxalifət liderlərinin son günlər fəallaşmalarının səbəbi xarici qüvvələrin diqqətini özlərinə cəlb etmək məqsədi daşıyır.

### Alternativ AXCP-nin sədri Razi Nurullayev də müxalifətin fəaliyyətini kəskin tənqid edib. Bildirib ki, Ə.Kərimli, A.Hacılı və İ.Qəmbərin fəaliyyətləri yalnız sosial şəbəkələrdən ibarətdir

R.Nurullayev müxalifət "lider"ləri, xüsusən də, "Milli Şura" ətrafında birləşən təşkilatlar, sadəcə, öz ömürlərini uzatmaq üçün çalışırlar: "Misal üçün Əli Kərimli ilə bir partiyada olan zaman man-



qurtlaşmadım, zombiləşmədim, onun təsir dairəsinə düşmədim. Ə.Kərimli cəmiyyətdə parlamaq istəyən insanları görəndə, qısqanclıq onu boğurdu. O, insanlara qarşı bütün çirkin "resurs"larını işə saldı. Biz də özümüzü müdafiə etmək və partiyanı qorumaq üçün hərəkətə keçdik. Bu gün mənim üçün və partiyamın üzvləri üçün Ə.Kərimli AXCP-dən uzaqlaşdırılmış bir şəxsdir. O, artıq "Yurd" sədridir. AXCP buradadır".

R.Nurullayev Müsavat partiyasının da hazırkı acınacaqlı durumda olmasına münasibət bildirib: "Müsavatdan da xeyli qopmalar oldu, kütləvi istefalar başladı. Oradan çıxanların da hərəsi bir partiyaya getdi. Bu gün Müsavat partiyasının nüfuzu yoxdur". Müsavat partiyasının başqan müavini Gülağa Aslanlı qəzetimizə açıqlamasında R.Nurullayevin Müsavat partiyası haqqındakı fikirlərinə qısa şəkildə münasibət bildirib. O, qeyd edib ki, R.Nurullayev, ilk öncə, kim olduğunu, adını və soyadını müəyyənləşdirsin: "Mən onu ciddi bir adam hesab etmədiyimə görə, başqa heç nə deyə bilmərəm. Ancaq yaxşı olardı ki, getsin AXCP-dən, vaxtilə təmsil olunduğu, indi rəhbərlik etdiyi kiçik qruplaşmadan danışsın".

Göründüyü kimi, müxalifətin fəaliyyəti ancaq milli maraqları satmağa hesablanıb. Bu baxımdan, belə müxalifət haqlı olaraq ictimai nifrətə və ittihama layiqdir. Dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsinin müxtəlif, həm də konkret səbəbləri var. Başlıcası hakimiyyətə gəlmək uğrunda anti-Azərbaycan dairələrə Dağlıq Qarabağı ermənilərə güzəştə gedəcəklərini vəd etmələri, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məqam və məqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri və bu kimi səbəblərlə əlaqələndirmək olar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşləri və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsini, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar. Mövcud faktlara baxmayaraq, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq, təkmil struktur elementlərinə malik olan və möhkəm əsaslara söykənən siyasi sistemin sabitliyini sarsıtmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Xarici qüvvələrin sifarişlərini yerinə yetirmək üçün canfəşanlıq edən ünsürlər bəd əməlləri ilə xalqdan çox aralı düşdüklərini göstərirlər. Belə müxalifət, haqlı olaraq, ictimai nifrətə və ittihama layiqdir.

**İ.ƏLİYEV**

***Azərbaycanda demokratik mədəniyyət insana yeni baxış, vətəndaşlara daha yaxşı gələcəyi, yeni humanist sivilizasiyanın formalaşmasını tələb edir. Bu gün demokratik mədəniyyət xalqımızın milli sərvətidir. Ölkəmizin əsas kapitalı yüksək mədəniyyətin yaradıcısı və daşıyıcısı olan Azərbaycan xalqıdır.***

# Azərbaycanda demokratik mədəniyyətin formalaşması və inkişafı

İstər xalq mədəniyyəti, istərsə də “yüksək”, “elitar” mədəniyyət insan biliklərinin, bacarıqlarının, təşkil olunmasının və mənəviyyatının yüksək səviyyəsini nəzərdə tutur, həyata məna verir, insana öz qarşısına qoyduğu insanpərvər məqsədlərə çatmaq uğrunda mübarizədə güc və qüvvə verir, xoşbəxtlik üçün imkanlar yaradır. Mədəniyyət, həm də insanın dəyərinin meyarıdır. “Yüksək mədəniyyət” - şəxsiyyətin mütləq dəyərinin meyarı və onun sivil insanlar birliyinə daxil olmasının göstəricisidir. İrqi, etno-milli, konfessional, siyasi və başqa fərqləri aradan qaldıraraq, mədəniyyət insanlar arasında birliyin və sülhün əsasına çevrilir. İnsanın, cəmiyyətin və bütün bəşəriyyətin gələcəyinə gedən yol yalnız yüksək mənəvi mədəniyyətdən keçir.

Məlum olduğu kimi, “mədəniyyət” termini “kultur” ifadəsini ilk dəfə Qərbdə romalı Mark Tullis Sisseron özünün məhkəmə və siyasi nitqlərində, əsərlərində və məktublarında bu termindən dəfələrlə istifadə etmişdir.

“Mədəniyyət” terminini, yeni mənada XVIII əsr şotland filosofu A.Ferqüson işlətmişdir.

Şərqdə “mədəni” termini ərəblərdə işlənmiş və aşağıdakı mənaları ifadə etmişdir:

**1.** Şəhərli, qəsəbəli;

**2.** Quraq, yeni köçəri olmayan;

**3.** Mədəniyyətin yüksək səviyyəsində olan - elmli, oxumuş;

**4.** Mədəniyyətə mənsub olan.

Tədqiqatçılar bu ifadəni şərti və nisbi olaraq iki sahəyə bölürlər.

Mədəniyyət insanın yer üzərində mövcudluğunun bütün tərəflərini, onunla rəngarəng əlaqə və münasibətləri əhatə edən mürəkkəb və çoxsahəli bir fenomendir. Onun mahiyyət və mənasındakı qiymətli xüsusiyyətlərin başlıca cəhətlərini belə aydınlaşdıra bilərik: mədəniyyət insanın bacarıq və əlaqələrinin, insan tərəfindən yaradılanların, insan əməyi və zəkasının nəticələrinin tam vəhdətinin zahiri əksini ifadə edən ictimai subyekt kimi insanın özünün fəaliyyətini müəyyənləşdirən tarixi inkişaf prosesidir.

Deməli, mədəniyyətin əsas vəzifəsi insanın ictimai fəaliyyət subyekti kimi, inkişafına əsaslanmaqla bərabər, bu inkişafı şərtləndirir. Mədəniyyətin obyektləri isə, geniş mənada təbiət və cəmiyyətdir.

1. İnsanın təbiəti dəyişdirmək prosesində özünün dəyişməsi ilə əlaqədar olan maddi mədəniyyət;

2. İnsanın mənəvi aləminin və sosial varlığının dəyişməsi ilə əlaqədar olan mənəvi mədəniyyət.

Eyni zamanda, bu sahələrin hər ikisi bir-biri ilə qarşılıqlı əlaqədədir, biri digərinin inkişafına imkan yaradır və kömək edir.

Bu gün Azərbaycanda formalaşan milli-demokratik mədəniyyət xalqın ümummədəni səviyyəsinin yüksəlməsinə xidmət edir. Ölkədə insan kapitalının durmadan inkişafı üçün tədbirlər görülür, büdcədən əsaslı maliyyə vəsaiti ayrılır. Məhz ölkəmizdə təşəkkül tapan və inkişaf edən milli-demokratik mədəniyyət cəmiyyətdə siyasi- sosial, millətlərarası və dinlərarası mədəniyyətin formalaşmasına təsir edir.

F.Məmmədov bu prosesi aşağıdakı kimi təsvir edir: “Elmin prizmasından mədəniyyətin vəziyyəti tənqidi surətdə araşdırılır və yeni ictimai sistemin tələblərinə cavab verən ideologiyanın əsasını təşkil edən mədəniyyətin ideallarının, dəyər və normalarının - mənəvi, psixoloji, estetik, siyasi - yeni imperativləri elmi surətdə işlənilir. Mütərəqqi mədəni siyasət üç əsas prinsip üzərində qurulmalıdır. Birincisi - elmin, təhsilin və yüksək texnologiyaların qabaqlayıcı inkişafı üçün prioritetlər təmin edən azad intellektual-yaradıcı fəaliyyət üçün əlverişli şəraitin yaradılmasıdır. İkincisi - yeni mədəniyyətin xalq kütləri tərəfindən qəbul edilməsinin yüksək səviyyəsini təmin edən dövlətin səmərəli maarifçilik fəaliyyətinin təşkil edilməsidir. Üçüncüsü - mütərəqqi demokratik ölkələrlə aktiv mədəni mübadilə aparılmasıdır. Bu prinsiplərin uğurla gerçəkləşdirilməsi üçün kulturoloji elm və təhsilin inkişaf etdirilməsi, kütlələrin elmi maarifləndirilməsi məqsədi ilə dünya mədəniyyəti nailiyyətlərinin, tarixi və nəzəriyyəsinin təhlili üçün kulturoloji metodologiyanın tətbiqi böyük əhəmiyyət kəsb edir. Kulturologiya vətəndaşların elmi və siyasi biliklərinin artması, praktiki imkanlarının genişlənməsi, onların həyat fəaliyyətlərinin keyfiyyətinin yüksəlməsi, ictimai münasibətlərin inkişafına müsbət təsir göstərən prinsiplər, dəyərlər və normaların təkmilləşdirilməsi üçün zəmin yaradır. Belə siyasətin səmərəlilik meyarı vətəndaşların bütün cəmiyyətin dayanıqlı inkişafını və rifahının yüksəlməsini təmin edən sosial-aktiv fəaliyyətidir. Bu məqsədin əldə olunması, bütövlükdə, dünya mədəniyyətinin inkişaf təcrübəsi, qanunauyğunluqları, xüsusiyyətləri və inkişaf istiqamətləri nəzərə alınmaqla, vətəndaş cəmiyyəti dəyərləri əsasında xalqın həyati tələbatları və maraqlarının ödənilməsini nəzərdə tutur”.

Müəllif qeyd edir ki, demokratik dövlətin mədəni siyasətinin məqsədi xalqın mədəni inkişafına yardım etməkdir. Buna görə də, demokratik ölkələrdə, o, vətəndaşların yaradıcı qüvvələri və bacarıqlarının inkişafı üçün əlverişli iqtisadi, təşkilati və mənəvi-psixoloji şəraitin yaradılmasını təmin edir. Bu cür mədəniyyət siyasəti sosial yönümlüdür və nəinki ölkə daxilində, habelə, beynəlxalq miqyasda ictimai münasibətlərin plüralizm və polisentrizm əsasında harmonikləşdirilməsini təmin edir. Özünün sosial vəzifələrini yerinə yetirərək, demokratik ölkələrin mədəniyyət siyasəti cəmiyyət və dövlət kimi tarixi-sosial institutların daimi inkişafı və təkmilləşdirilməsini təmin edir. Demokratik mədəniyyətin dəyərlər sisteminin təkmilləşdirilməsi yolu ilə, o, ölkə vətəndaşlarının davranışının seçdikləri siyasi institutlar və demokratiya normalarına şüurlu və könüllü tabe edilməsi üçün zəmin yaradır, vətəndaş cəmiyyətinin idarə olunmasında qeyri-hökumət təşkilatları üçün geniş yol və bərabər imkanlar açır. Vətəndaş cəmiyyətlərində mədəniyyət siyasəti, həmçinin, ölkənin sosial-mədəni inkişafının mədəni imperativlərinin, istiqamətinin uyğunluğuna, inkişaf sürəti və prioritetlərə riayət edilməsinə sosial nəzarətin həyata keçirilməsini təmin etməlidir. Bu nəzarət həm dövlət-hüquqi və siyasi institutlar, həm də qeyri-hökumət, ictimai institutların köməyi ilə yerinə yetirilir.

***Dövlət mədəniyyət siyasətinin səmərəliliyi ruhi mədəniyyət sahəsinin ideoloji, texnoloji və təşkilati səviyyələrdə idarəetmə sistemlərinin səmərəliliyindən asılıdır. Əgər idarəetmənin məqsədi mədəniyyətin bütün sahələrinin ahəngdar, qarşılıqlı surətdə əlaqəli inkişafıdırsa, onda onun əsas fəaliyyət sahəsi - mədəniyyətin müasir “mənəvi istehsalın” əsas qüvvəsini təşkil edən təhsil, elm və incəsənət kimi aparıcı sosial institutlarının inkişafının koordinasiyası və tənzimlənməsidir. Bundan ötrü dövlət hüquqi, təşkilati və maddi vasitələrdən istifadə edir.***

Dövlət mədəniyyət siyasətinin səmərəliliyi ruhi mədəniyyət sahəsinin ideoloji, texnoloji və təşkilati səviyyələrdə idarəetmə sistemlərinin səmərəliliyindən asılıdır. Əgər idarəetmənin məqsədi mədəniyyətin bütün sahələrinin ahəngdar, qarşılıqlı surətdə əlaqəli inkişafıdırsa, onda onun əsas fəaliyyət sahəsi - mədəniyyətin müasir “mənəvi istehsalın” əsas qüvvəsini təşkil edən təhsil, elm və incəsənət kimi aparıcı sosial institutlarının inkişafının koordinasiyası və tənzimlənməsidir. Bundan ötrü dövlət hüquqi, təşkilati və maddi vasitələrdən istifadə edir.

Aparılmış bu təhlil Azərbaycanda dövrün tələblərinə uyğun ölkənin sosial-mədəni tərəqqisinə istiqamətlənmiş yeni milli- demokratik mədəniyyətin formalaşmasına və inkişaf etdirilməsinə kəskin zərurət olduğunu söyləməyə əsas verir. Bu gün bu təhlillərə əsaslanaraq, yeni milli-demokratik mədəniyyət Azərbaycan xalqının intellektual inkişafa doğru, onun şüurunun və həyat tərzinin isə, daha yaxşı gələcək uğrunda insanın və cəmiyyətin fəal yaradıcı dəyişdirilməsinə doğru yönəlməsinə yardım etməlidir. Milli-demokratik mədəniyyət sahəsində qərarlar hökumət və qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin kooperasiyası, milli və beynəlxalq təcrübənin sistemli təhlili, mütəxəssislərin və əhalinin müxtəlif kateqoriyalarının rəyinin öyrənilməsi, alim-kulturoloqların elmi ekspertizası əsasında qəbul edilməlidir.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **22 iyul**

## *Zəfəran beyni seyrək sklerozdan qoruyur*



Zəfəran beyni hüceyrələrin iltihabı ilə bağlı xəstəliklərdən, o cümlədən seyrək sklerozdan qoruyur. Məlumdur ki, iltihab prosesi orqanizmin potogenlərdən, zədələnmiş hüceyrələrdən və ya qıcıqlandırıcı maddələrdən azad olması cəhdidir. Seyrək skleroz müdafiə təbəqəsini itirmiş neyronların iltihabını səciyyələndirir. Xəstəliyin əlamətləri müxtəlifdir: görmə qabiliyyətinin pozulması, əzələ spazmaları, həssaslığın itirilməsi, nitq qabiliyyətində problemlər, baş gicəllənmələri, depressiyalar. Albert Universitetinin alimi Kris Pauerin tədqiqatları nəticəsində məlum olmuşdur ki, zəfəranın tərkibində krotsin vardır.

Bu maddə beyin hüceyrələrinə təsir göstərir, mielin yaradan hüceyrələrin zədələnməsinə imkan vermir. Pauerin fikrincə, zəfərandan beynin xroniki iltihabı zamanı qeyri-ənənəvi təbabətdə istifadə etmək olar.

## *Kokos yağı yaddaşı qaytarmağa kömək edir*

Oksford Universitetinin alimləri Altsheymer xəstəliyindən əziyyət çəkənlər üçün yaddaşı qaytarmağa kömək edən vasitə tapdıqlarına əmindirlər. Tədqiqatçılar tərəfindən aparılan kokos yağının analizi keton kimi tanınan birləşmələri aşkara çıxarmışdır. Həmin birləşmələrin beyni qidalandırdığı güman edilir. Doğrudur, mütəxəssislər nəticələrin hələ ilkin olduğunu qeyd edirlər. Lakin bir məsələ dəqiqdir ki, qısamüddətli olsa da demensiyalı xəstələrin vəziyyəti yaxşılaşır. Dietoloq Piter Klifton bildirmişdir ki, onların Altsheymer xəstəliyindən əziyyət çəkən adamlarla apardıqları araşdırmalar göstərmişdir ki, kokos yağı adamlara onların kim olduqlarını xatırlamaq və əslində normal nitqi saxlamaq imkanı verir. Bu müvəqqəti effekt olsa da valehedicidir. Alimlər əhvalı yaxşılaşdırmaq üçün hər gün cəmi 30 qram kokos yağı qəbul etməyi tövsiyə edirlər. Digər araşdırmanın nəticəsi isə göstərir ki, kokosun tərkibində olan yağlar qara ciyəri toksinlərdən qoruyur, ağciyərlərə, böyrəklərə kömək edir, cinsiyyət funksiyasını yaxşılaşdırır, iltihabi proseslərin və ürək xəstəliklərinin konsentrasiyasını aşağı salır.

## *Castin Bibera bu ölkədə qadağa qoyuldu*



Kanadalı müğənni Castin Biberin Çindəki konsertinə qadağa qoyulub. "Guardian"ın məlumatına görə, qadağanın səbəbi isə müğənninin "əxlaqsız davranışları"dır. Pekin Mədəniyyət Bürosu Biberin səhnədən kənardakı zorakılıq davranışlarını əsas gətirib: "Castin Biber istedadlı müğənnidir, amma eyni zamanda mübahisəli bir addır". Müğənni bundan sonra Çində konsert verə bilməyəcək. Bu yaxınlarda baş tutacaq Asiya turuna isə Sinqapur, Yaponiya, İndoneziya, Honq Konq və Filippində davam edəcək.


## ELAN

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Nəsimi rayon şöbəsi 1 ədəd server avadanlığının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

**Maraqlanan təşkilatlar (012) 441-04-02 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

**Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2017-07-26, saat 17:00 tarixinədək qəbul olunur.**

**Ünvan: Baki şəhəri, Nəsimi rayonu, S.Zeynalov küçəsi 46**


## Vrotslavda Dünya Oyunları başlanıb



Vrotslavda Dünya Oyunları - Olimpiya Oyunları proqramına daxil olmayan idman növləri üzrə beynəlxalq yarışlar başlanıb. Bu, iştirakçıların sayına görə qeyri-Olimpiya idman növləri üzrə rekord oyunlar olacaq. Vrotslava dünyanın hər yerindən ümumilikdə 111 milli yığma gəlib ki, bu da dörd il əvvəl Kolumbiyanın Kali şəhərində keçirilmiş yarışlardan 8 yığma çoxdur. İdmançıların sayına görə ən böyük yığma Polşanındır - yığmaya 215 idmançı daxildir, ondan sonra Fransa, Rusiya və ABŞ komandaları gəlir.

Vrotslavdakı Dünya Oyunlarında idmanın 27 növü və əlavə olaraq spidvey, Amerika futbolu, kikboksinq və qapalı hovuzlarda avarçəkmə kimi dörd idman növü təqdim edilir. İdman tədbiri 10 gün davam edəcək.

## "Qəbələ" mərhələni qələbə ilə keçdi



Futbol üzrə UEFA Avropa Liqasında bu gün ikinci təsnifat mərhələsinə yekun vurulub.Qol.az-ın məlumatına görə, son 2 ildə qrup mərhələsində yarışan "Qəbələ" Polşada "Yagelloniya"nın qonağı olub. Roman Qriqorçukun komandası 2:0 hesablı qələbə ilə növbəti mərhələyə vəsiqə qazanıb. Qeyd edək ki, "Qəbələ" 3-cü təsnifat mərhələsində Yunanıstanın "Panatinaikos" klubu ilə qarşılaşacaq.

## Futvole üzrə "Qızmar Bakı qumu" adlı turnir keçiriləcək




Bakı Su İdmanı Sarayında Azərbaycan Futnet Assosiasiyasının təşkilatçılığı ilə futvole (çimərlik voleybolu və futbolun sintezi) üzrə "Qızmar Bakı qumu" adlı turnir keçiriləcək. AZƏRTAC xəbər verir ki, iyulun 29-da baş tutacaq turnirdə kişi və qadın komandaları iştirak edəcəklər. Kişilərin yarışında səkkiz futvole kollektivi iki qrupda mübarizə aparacaq. Qrupda ilk iki yeri tutan komandalar yarımfinala vəsiqə qazanacaqlar. Qrup çərçivəsində mübarizə aparacaq qadın idmançılar arasında yığmamızın üzvləri də var. Qeyd edək ki, "Qızmar Bakı qumu" yarışı avqustun 5-6-da paytaxtımızda keçiriləcək futvole üzrə beynəlxalq turnirə hazırlıq xarakteri daşıyır.

## "Qarabağ"-"Şerif" oyununun biletləri satışa çıxarılıb

Futbol üzrə Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin ilk matçları çərçivəsində keçiriləcək "Qarabağ" (Ağdam)-"Şerif" (Moldova) qarşılaşmasının biletləri satışa çıxarılıb. AZƏRTAC xəbər verir ki, azarkeşlər biletləri Tofiq Bəhramov adına Respublika stadionunun kassalarından əldə edə bilərlər. Biletlərin qiyməti nömrəli sektorlara görə 1-5, VİP sektoruna isə 50 manatdır. Qeyd edək ki, "Qarabağ"-"Şerif" matçı iyulun 25-də saat 21:00-da Tofiq Bəhramov adına Respublika stadionunda start götürəcək.

## Roman Yeryomenkonun cəzası qüvvədə saxlanılıb

Lozannada yerləşən İdman Arbitraj Məhkəməsi (CAS) CSKA və Finlandiya millisinin futbolçusu Roman Yeryomenko ilə bağlı qərarı qüvvədə saxlayıb. SİA-nın məlumatına görə, 30 yaşlı yarımmüdafiəçi əvvəlki kimi 2018-ci ilə qədər futbol oynaya bilməyəcək. Yeryomenko 2 il müddətinə futboldan diskvalifikasiya olunub. Onun cəzası 2016-cı il 6 oktyabrdan hesablanır. Həmin ilin setyabrında futbolçudan götürümüş dopinq test müsbət nəticə vermişdi. Onun orqanizmində kokain və digər qadağan olunmuş preparatlar aşkarlanmışdı.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**